Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

9
İYUL
2019-cu il

№ 119 (4017)

Qiymәti
40 qәpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur


# ATƏT PA-nın KOMİTƏ İCLASINDA ERMƏNİ DEPUTATLARIN AZƏRBAYCANIN 7 RAYONU ÜZƏRİNDƏ DOLAŞDIRICI OYUNU...

səh. 5


Prezident 6 ayda gəlir artımlarının hara yönəldiyi barədə açıqlamalar verdi... səh. 3

Ermənilər oyun oynadılar və Qarabağ ətrafında rayonlarımızın işğalını etiraf etməyə məcbur oldular səh. 9

Erməni diasporunun kriminal sifəti ABŞ və Avropanın ardınca Rusiyada yenidən özünü göstərməyə başlayır... səh. 3

Azərbaycan uydurma "DQR"ə daha bir qanunsuz beynəlxalq dəstək kanalını bağladı səh. 6

BMT-nin Qeyri-maddi mədəni irs və Dünya irsi siyahısındakı Azərbaycan inciləri... səh. 11

Reklam qanununda böyük boşluq - rəqəmsal resurslarda reklamı tənzimləmək mümkünsüzdür... səh. 12

Naxçıvan türbələri də Dünya İrs Siyahısına daxil edilə bilər səh. 11





səh. 4

## Azərbaycan üzərindən Avropaya mal ötürməyə can atan Çin vilayətlərinin sayı sürətlə artır

*Çindən Avropaya mal daşıma rəqabətində Azərbaycan hamını üstələdi...*





«Şimal axını-2» əngəlləndi, Azərbaycan qazı Avropanın «burnunun ucuna» çatdı səh. 8

Ermənilər Sevan oyunu ilə Xruşovdan sonra indi də BMT baş katibini «fırlatmağa» çalışırlar... səh. 7

Ermənistanın ATƏT PA-da nümayəndə heyəti saxta genosid barədə hay-küylü xəbər yaydı... səh. 6

səh. 10 "İran bir ildən də tez atom silahı əldə edəcək" - Bir il Azərbaycan üçün də bu cəhətdən təsirli ola bilər...



səh. 14 Həkim səhlənkarlığına görə xəstəyə dəymiş ziyanın əvəzi ödəniləcək - Azərbaycanda yeni...



səh. 12 Qızılgül yağı da Azərbaycana valyuta axınının mühüm mənbələrindən birinə çevrilir...



səh. 14 Abituriyentlər imtahana cadu-piti, dualar, seyid şəkilləri ilə gəlir, heç olmasa şparqalka...



səh. 15 Azərbaycanda ev muzeyləri - dövlət vəsaitinin mənasız xərcləndiyi daha bir sahə... Dünya onları çoxdan özəlləşdirib...



## Hafiz Paşayev Azərbaycanı beynəlxalq diplomatiyanın bir hissəsi adlandırdı...

**Azərbaycan diplomatiyası bugünkü günə çatana kimi asan yol keçməyib. "Trend"in məlumatına görə, bunu ADA Universitetinin rektoru, Xarici İşlər nazirinin müavini Hafiz Paşayev Azərbaycanın "Diplomatik xidmət orqanlarının 100 illiyi" münasibətilə beynəlxalq konfransda çıxışı zamanı deyib.**

**H.Paşayev qeyd edib: "Ötən il biz Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyini qeyd etdik. ADA Universitetində bu münasibətlə müxtəlif tədbirlər keçirildi. Bu il isə biz Azərbaycan diplomatiyasının 100 illiyini qeyd edirik".**

**Xarici işlər nazirinin müavini vurğulayıb ki, artıq 30 ildir Azərbaycan beynəlxalq diplomatiyanın bir hissəsidir.**



H.Paşayev əlavə edib ki, Azərbaycan diplomatiyası bugünkü günə çatana kimi asan yol keçməyib.

Qeyd edək ki, ADA Universitetində Azərbaycanın "Diplomatik xidmət orqanlarının 100 illiyi" münasibətilə konfrans keçirilir. Tədbirdə Xarici işlər naziri Elmar Məmmədyarov, dövlət rəsmiləri, Azərbaycanın xarici ölkələrdəki səfirləri, Bakıda çalışan xarici diplomatlar iştirak edir.

Prezident İlham Əliyevin 24 avqust 2007-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü təsis edilib. Hər il 9 iyul Azərbaycan diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd edilir.

## Türkiyənin məşhur keçmiş xarici işlər naziri Hikmət Çətin Dağlıq Qarabağ münaqişəsinin həllindən danışdı

**Dağlıq Qarabağ münaqişəsi BMT-nin qətnamələri əsasında həll olunmalıdır. "Trend"in məlumatına görə, bunu Türkiyənin keçmiş xarici işlər naziri Hikmət Çətin Azərbaycanın "Diplomatik xidmət orqanlarının 100 illiyi" münasibətilə keçirilən beynəlxalq konfransda çıxışı zamanı deyib.**

O bildirib ki, BMT Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib: "Amma bu qətnamələr icra olunmayıb. Ermənistan hələ də Azərbaycan ərazilərinin işğalını davam etdirir. Əgər onlar regionda rifahdan yararlanmaq istəyirsə, düşmənçilik və işğal siyasətindən imtina etməlidir. Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq və bu dörd qətnamə əsasında həll olunmalıdır".

## Londona qaçmış Dubay şeyxinin arvadının yeni eşq macəraları barədə xəbərlər yayılıb

**İngiltərə mediası Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Baş naziri və Dubay əmiri Şeyx Məhəmməd ibn Rəşid əl-Maktumun həyat yoldaşı Haya bint əl-Hüseyn haqqında yeni iddialar ortaya atıb.**



Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, Dubay şeyxinin altı həyat yoldaşından biri olan Haya son aylarda sığınacaq almaq üçün qaçdığı Almaniyadan Londona gedib və onun iki uşağı ilə burada gizləndiyi bildirilir. Şeyxin 33 yaşında qızı Latifanın da keçən il qaçmağa çalışarkən yaxalandığına dair xəbərlər yayılmışdı.

İngiltərə mətbuatı Hayanın Londondakı həyatı haqqında yeni məlumatlar yayıb. "Daily Mail" iddia edir ki, Hayanın London mərkəzli təhlükəsizlik şirkəti "UK Mission Enterprise Limited"də işləyən bir mühafizəçi ilə əlaqəsi var. Hayanın ərindən ayrılıb mühafizəçi ilə yeni bir ailə qurmaq istədiyi, ancaq maddi sıxıntılarla üzləşəcəyindən bunu reallaşdıra bilmədiyi iddia edilir. Onun qardaşı, İordaniya kralı Abdullahın da yasaq əlaqəsindən xəbərdar olduğu, digər yaxınlarının Hayaya həyat yoldaşından rahat həyat şəraiti qura biləcəyi müqdarda pul almasını tövsiyə etdikləri deyilir.

Yazıda Hayanın ingilis sevgilisi üçün olduqca bahalı hədiyyələr aldığı və bundan ötrü lazım olan pulları da ərindən aldığı qeyd edilir. Dubay mətbuatı isə bir az da irəli gedərək, Hayanın ən kiçik oğlunun Şeyx Məhəmməd ibn Rəşid əl-Maktumdan deyil, şahzadənin sevgilisindən olduğunu iddia edib. Qeyd edək ki, cütlüyün boşanması ilə bağlı iddaları iyulun 30-da London məhkəməsində baxılacaq.

# Prezident İlham Əliyev İtaliyanın Turizm, Meşəçilik, Qida və Kənd Təsərrüfatı nazirini qəbul edib



**Prezident İlham Əliyev iyulun 8-də İtaliyanın Turizm, Meşəçilik, Qida və Kənd Təsərrüfatı naziri Gian Marko Centinaionun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Azərbaycan-İtaliya ikitərəfli münasibətlərinin yüksək səviyyədə olduğunu, siyasi, iqtisadi və digər sahələrdə əlaqələrimizin genişlənməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarellanın Bakıya keçənilki səfərini ölkələrimiz arasında münasibətlərin uğurlu inkişafının göstəricisi kimi dəyərləndirərək, əlaqələrimizin müxtəlif istiqamətləri üzrə konkret işlərin həyata keçirildiyini və əməkdaşlıq üçün yeni imkanların açıldığını deyib. Prezident İlham Əliyev İtaliya şirkətlərinin Azərbaycanda uzun illər uğurla fəaliyyət göstərdiklərini vurğulayaraq, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmini qeyd edib.

Qəbula görə minnətdarlığını bildirən nazir Gian Marko Centinaio İtaliya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin bütün sahələrdə yüksək səviyyədə olduğunu vurğulayaraq, keçən il İtaliya Prezidenti Sercio Mattarellanın ölkəmizə səfərinin əlaqələrimizin genişləndirilməsi işinə töhfə verdiyini vurğulayıb. Nazir UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etdiyini bildirərək, həmin sessiyada "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil olması münasibətilə təbriklərini çatdırıb və bu sessiyanın İtaliya üçün də əlamətdar olduğunu qeyd edib.

Dövlət başçısı UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasının mühüm tədbir olduğunu deyib, bu sessiyada "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsini çox əlamətdar və tarixi hadisə kimi dəyərləndirib və Azərbaycanın qədim tarixə və mədəniyyətə malik olduğunu vurğulayıb.

Söhbət zamanı Azərbaycanla İtaliya arasında mədəniyyət və turizm sahələrində əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb, ölkələrimizin mədəni əlaqələrinin inkişafında dahi Azərbaycan şairi Nizami Gəncəvinin heykəlinin Roma şəhərində ucaldılmasının və Azərbaycanın Roma şəhərində aparılan arxeoloji işlərə verdiyi dəstəyin əhəmiyyəti qeyd olunub.

# Əli Babacan Ərdoğanın partiyasından getdi



**Türkiyənin iqtisadi işlər üzrə keçmiş dövlət naziri və sabiq XİN rəhbəri Əli Babacan hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sıralarını tərk edib.**

"Trend"in məlumatına görə, o, AKP sıralarını tərk etməsi barədə partiya qurumuna məktub göndərib.

Hazırda onun sədrliyi ilə Türkiyədə yeni partiya yaradılacağı barədə xəbərlər yayılıb.

Qeyd edək ki, Türkiyədə hazırda 83 siyasi partiya fəaliyyət göstərir.

# Velosiped oğrusu kimi 36-cı bölməyə gətirildi, anası polisin qol saatını qırdı, başqa həqiqətlər də açıldı

**Bakı Şəhər Baş Polis İdarəsi (BŞBPİ) sosial şəbəkələrdə şəhid ailəsinin Xətai rayon 36-cı Polis Bölməsində döyülməsi ilə bağlı yayılan videosujetə münasibət bildirib.**

Bakı Şəhər Baş Polis İdarəsinin mətbuat xidmətinin rəhbəri, polis mayoru Elşad Hacıyev "Trend"ə açıqlamasında yayılan məlumatı təkzib edib: "Sosial şəbəkələrdə Xətai rayon 36-cı Polis Bölməsində şəhid ailəsinə təzyiq olunması ilə bağlı sübutsuz, ziddiyyətlərlə dolu qərəzli məlumat xarakterli videogörüntülər yayılıb. Həmin məlumatlar tərəfimizdən qəti şəkildə təkzib olunur, hüquq-mühafizə orqanları ilə heç bir dəqiqləşdirmə aparmadan əsassız yayılıb, iddialar dezinformasiyadır, təxribat xarakteri daşıyır".

E.Hacıyev deyib ki, Xətai rayonunda yaşayan Arzu Əliyevanın oğlunun əsassız olaraq bölməyə aparılması və ailə üzvlərinə qarşı təzyiq və xəsarət yetirilməsi ilə bağlı iddiaları həqiqəti əks etdirmir, baş verənləri gizlətmək məqsədi daşıyır: "İyulun 6-da A.Əliyevanın oğlu, 1996-cı il təvəllüdlü Cahangirov Qorxmaz Rəhman oğlu velosiped oğurluğunda şübhəli kimi Xətai RPİ 36-cı Polis Bölməsinə gətirilib və üzərinə hal şahidlərinin iştirakı ilə baxış keçirilən zaman 0,85 qram çəkidə narkotik vasitə olan heroin aşkar edilərək, Xətai RPİ İstintaq şöbəsinə göndərilib.

Qeyd olunan tarixdə 36-cı bölməyə gəlmiş C.Cahangirovun anası, 1970-ci il təvəllüdlü, Xətai rayonunda yaşayan A.Əliyeva özünü şəhid ailəsi kimi təqdim edərək oğlunun sərbəst buraxılmasını tələb edib, həmçinin polis əməkdaşlarının ünvanlarına nalayiq ifadələr səsləndirməklə bölmənin giriş qapısının şüşəsini sındırmaqla əl-üz nahiyələrinə qəsdən xəsarət yetirib. Eləcə də bölmənin məsul növbətçisinin göz nahiyəsinə yumruq zərbələri endirməklə xəsarət yetirib və qol saatını sındırıb".

Faktla bağlı toplanmış materiallar Xətai Rayon Prokurorluğuna göndərilib.

Oğurluqda şübhəli bilinən Q.Cahangirov barəsində cinayət işi üzrə bütün halların araşdırılması, istintaq tam, obyektiv və hərtərəfli aparılması üçün istintaq hərəkətləri davam etdirilir".

"Bizim gəlirlərimiz artır. Bu ilin altı ayında gəlirlərimiz təxminən 400 milyon manatdan çox artmışdır. Biz, ilk növbədə, bu vəsaiti sosial layihələrə istiqamətləndiririk.



*"...əhalinin vəziyyəti daha da yaxşılaşır"*

# Prezident 6 ayda gəlir artımlarının hara yönəldiyi barədə açıqlamalar verdi...

***Rüfət Quliyev:** "Bu ilin əvvəlindən etibarən artan gəlirlər daha çox sosial layihələrə yönəlib"*

Bildiyiniz kimi, bu il çox ciddi sosial paket təsdiqləndi, müavinətlər, o cümlədən məcburi köçkünlər üçün nəzərdə tutulan müavinətlər 50 faiz artırıldı". Bunu Prezident İlham Əliyev Piralլahı rayonunda 306 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksinin istifadəyə verilməsi zamanı məcburi köçkünlərlə görüşü zamanı deyib. Son 6 ayda əhalinin sosial durumunun yüksəlməsi məqsədilə Prezident tərəfindən bir neçə dəfə sərəncam və fərmanlar imzalanıb. Cari ilin 6 ayında ölkə iqtisadiyyatına daxil olan gəlir artıb. Artan gəlirlər əhalinin sosial durumunun inkişafına yönəlib. Bu səbəbdən də son zamanlar ölkə başçısı əhalinin yaşam şəraitinin yaxşılaşması üçün sosial paketi təsdiq edib. Millət vəkili Rüfət Quliyev bildirdi ki, son zamanlar əhalinin maddi durumunun yüksəlməsi üçün sosial yönümlü layihələr həyata keçirilərək, əhalinin vəziyyəti daha da yaxşılaşır: "Məlumdur ki, bu ilin əvvəlindən sosial layihələrə üstünlük verilib. Sosial layihələrə ilin əvvəlindən bu vaxta qədər təxminən müəyyən məbləğdə vəsait xərclənib.

Digər problemli məsələlər, bank sisteminin sağlamlaşdırılması və s. yavaş-yavaş öz həllini tapır, çox ciddi siyasi islahatlar həyata keçirilir". Millət vəkili onu da vurğuladı ki, sosial layihələrin həyata keçirilməsində əsas məqsədlərdən biri də neftdən gələn gəlirlərin insan kapitalına yönəldilməsi sayəsində həyat səviyyəsini daha da yaxşılaşdırmaq, beynəlxalq aləmdə Azərbaycanın imicini qaldırmaq və iqtisadiyyatımızda çox ciddi irəliləyişə nail olmaqdır.

***Günel CƏLİLOVA***

**Rusiya KİV-i erməni diaspor nümayəndələrinin növbəti dələduzluq əməlini ifşa edib. İyunun 14-də Moskvada Federal Təhlükəsizlik Xidmətinin əməkdaşları məşhur erməni sahibkar Albert Xudoyanı tutublar. Mənbə bildirir ki, Xudoyan şirkətlərdən birindən üç torpaq sahəsinin oğurlanmasında ittiham olunur.**

*"Onların hamısının da Ermənistanın siyasi rəhbərliyi ilə sıx əlaqəsi mövcuddur"*

# Erməni diasporunun kriminal sifəti ABŞ və Avropanın ardınca Rusiyada yenidən özünü göstərməyə başlayır...

***Samir Adıgözəlli:** "Artıq ermənilərdən ibarət kriminal ünsürlər diaspor fəalı adı ilə fəaliyyəti daha məqbul sayırlar"*




Şirkətə dəymiş zərər 10 milyon dollar həcmində qiymətləndirilir.

Məsələni həll etməyi Xudoyan öz vəkili Gennadi Udunyana tapşırıb. Bildirilir ki, Udunyan Moskvanın Baş İstintaq İdarəsində erməni diasporunun əsas lobbiçisidir.

FTX bu həbsi iki ay ərzində hazırlayırmış. Udunyan 2 milyard rubl vəsaiti İstintaq hissəsinin rəisi İqor Yakovlevə ötürdüyü vaxt yaxalanıb.

Qeyd edək ki, Albert Xudoyan "Optima Development" şirkətinin sahibidir. Əslində, bu, erməni diasporu üçün yenilik deyil. Onların bütün kriminal əməlləri dünyanın müxtəlif ölkələrində ifşa edilir. Ən maraqlısı isə budur ki, ortaya çıxan mənzərə bir çox hallarda erməni diasporunun bu cinayətləri Ermənistanın hakim dairələri ilə əlbir olaraq törətdiyini göstərir.

**Diaspor fəalı, İSBAM sədri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, artıq dünyanın müxtəlif yerlərində erməni mafiyasının ağır qətl və terrorlarda, partlayışlarda, şantaj əməllərində, quldurluqda, insan qaçaqmalçılığı və silah, narkotik ticarətində fəal iştirakçı olması faktlarla sübut olunur:** "Aparılan araşdırma maraqlı cəhətləri ilə diqqəti cəlb edir. Birincisi, bu mafiyanın Ermənistanın dövlət və siyasi elitası ilə əlaqələri, ikincisi isə Qarabağa qanunsuz səfərlər etmiş alman deputatları, idmançı və digər titulları olan şəxslərlə sıx işbirliyində olduğu. Bu mənzərə sübut edir ki, dünyanın ciddi dövlət elitaları ilə işləmək imkanları getdikcə məhdudlaşan Ermənistan hakimiyyəti hətta mafiya ilə də əməkdaşlığa gedir.

Ümumiyyətlə, istər erməni diaspor təşkilatları, istərsə də erməni diplomatik korpusu olsun, onlar işğalçı Ermənistan dövlətinin cinayətkar əməllərinin genişləndirilməsi istiqamətində açıq fəaliyyət göstərirlər. Sön dövrlərdə xarici mətbuatda Ermənistanın müxtəlif ölkələrdəki səfirlərinin kriminal aləmlə əlaqələri haqqında intensiv məlumatlar getməkdədir. Belə məlumatlardan biri də Almaniya mətbuatında yayıldı. Almaniya mətbuatında Ermənistanın AFR-dəki səfiri Aşot Smbatyanın erməni cinayətkarları ilə sıx əlaqələrindən bəhs olunub. Bundan başqa, Almaniya Bundestaqının üzvü Albert Vaylerin erməni cinayətkar qruplaşmaları ilə əlaqələri haqqında informasiyalar genişlənməkdədir".

Samir Adıgözəllinin sözlərinə görə, işğal altında olan Azərbaycan ərazilərinə səfər edənlər, bir qayda olaraq, erməni cinayətkar qruplaşmaları ilə cinayətkar əlaqələrdə olan şəxslərdir: "Bu da ondan xəbər verir ki, ermənilər özlərinin cinayətkar imiclərini müxtəlif ölkələrdə daha da möhkəmləndirməkdədirlər. Artıq Almaniya mətbuatında ermənilərin cinayətkar əməlləri və onlarla əlaqədə olan Almaniya vətəndaşları haqqında geniş müzakirələr aparılmaqdadır. Bu müzakirələrdən aydın görünür ki, Almaniyada erməni cinayətkar qruplaşmaları kifayət qədər təhlükəli kimi səciyyələndirilir. Ermənistan rəsmi şəxslərinin də sıx əlaqələrə malik olduqları bu cinayətkar qruplar Azərbaycan-Almaniya münasibətlərinə də xələl gətirmək istiqamətində cəhdlər edirlər. Bu yaxınlarda ABŞ-da da böyük erməni kriminal qrupu ifşa edildi. Bu baxımdan da Rusiyada belə halın olması təəccüblü görünmür. Artıq ermənilərdən ibarət kriminal ünsürlər diaspor fəalı adı ilə fəaliyyəti daha məqbul sayırlar. Onların hamısının da Ermənistanın siyasi rəhbərliyi ilə sıx əlaqəsi mövcuddur".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan üzərindən Avropaya mal ötürməyə can atan Çin vilayətlərinin sayı sürətlə artır

## *Çindən Avropaya mal daşıma rəqabətində Azərbaycan hamını üstələdi...*

**Bu gün dünyanın ən böyük ixracatçı ölkəsi kimi tanınan Çinin xüsusi maraq dairəsində olan məsələlərdən biri də dünya bazarlarına məhsullarını ən sərfəli marşrutlar üzərindən çıxarmaqdır. Çinin artan ixracatı fonunda ölkələrin əksəriyyəti Çin məhsullarını öz əraziləri üzərindən daşımaqda maraqlıdır.**




Məlumat üçün bildirək ki, təkcə ötən il Çinin ixrac etdiyi ümumi məhsulların həcmi 2,14 trilyon dollar təşkil edib. Bu həcmdə yüklərin dünya bazarlarına çıxarılmasında iştirak edən ölkələr tranzit haqqı olaraq bundan yüksək gəlir əldə edir.

Yaranmış vəziyyətdə Çin üçün ən sərfəli marşrut təklif edən ölkə qismində isə Azərbaycan çıxış edir. Xüsusən də Azərbaycanın böyük uğurla reallaşdırdığı Bakı-Tiflis-Qars dəmir yolu xətti artıq Avrasiya məkanında yükdaşımalar üzrə coğrafiyada əhəmiyyətli dəyişikliklərə gətirib çıxarıb. İndi bu marşrut Çin məhsullarını dünya bazarlarına ən qısa müddətdə və sərfəli şərtlərlə çıxarmağa qabildir. Təsadüfi deyil ki, Çin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində bütün diqqəti məhz Bakı-Tiflis-Qarsa yönəldib. Pekin burada onu da nəzərə alır ki, Çindən gələn malların Avropaya daşınması üçün Azərbaycanda mükəmməl infrastruktur yaradılıb. Ölkəmizin Qazaxıstanın Aktau limanından yükləri daşımaq üçün 260 gəmidən ibarət güclü donanması var. Bu yüklərin boşaldılması və yola salınması üçün isə Ələtdə beynəlxalq əhəmiyyətli liman tikilib. Limandan yüklərin Avropa ölkələrinə daşınması üçün Bakı-Tiflis-Qars fəaliyyət göstərir. Eyni zamanda, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərində yerləşən ölkələr öz mallarını nəql etmək üçün Azərbaycanın ərazisindən istifadə edir. Məhz bütün bunlar Çinin, digər layihələrlə müqayisədə, Bakı-Tiflis-Qarsa daha çox diqqət ayırmasına rəvac verir. Bundan irəli gəlir ki, Bakı-Tiflis-Qarsla yüklərini dünya bazarlarına göndərən Çin vilayətlərinin sayı artır. Xatırladaq ki, bu xüsusda ilk addım Çinin Sintszyan-Uyğur muxtar rayonu tərəfindən atılıb. Məhz buradan Urumçi şəhəri Azərbaycan ərazisindən keçməklə Avropaya yük daşımağa başlayıb. "Şərq-Qərb" dəhlizi ilə Avropaya qatarlar yükləri öncə Qazaxıstan limanına daşıyır, daha sonra yük dəniz yolu ilə Bakıya, buradan da Avropaya çatdırılır. Çindən Avropaya yüklər 8 günə çatdırılır. Artıq 2018-ci ildə Urumçidən Avropaya 1300-dən çox qatar yola salınıb. Cari ildə bu rəqəmin daha da artması gözlənir.

Yaranmış vəziyyətdə Çinin digər vilayətləri də Azərbaycan üzərindən tranzitə xüsusi diqqət yetirməkdədir. Bu fonda, artıq məlumat verildiyi kimi, Çindən yola düşən daha bir blok qatarı Azərbaycana çatıb. Çinin Sian şəhər merinin müavini Qao Qao bildirib ki, Sian-Bakı blok qatarı Azərbaycan və Çin şirkətlərinin işinə böyük töhfə verəcək. O bildirib ki, Sian-Bakı dəmir yolu marşrutu üzrə qatarlar ötən ildən fəaliyyətə başlayıb. Hazırda Çinin Şansi vilayətinin mərkəzi Siandan Bakı istiqamətində daha 2 qatar gəlir: "Ötən il Siandan Avropaya 1300-dən çox qatar yola salınıb, bu isə milyardlarla dollar gəlir deməkdir. Bu gün Siandan Bakıya gələn qatar reysi ümumilikdə Çindən Avropaya gedən 13-cü marşrut yoludur. Ümid edirik ki, çinli və azərbaycanlı biznesmenlər yaradılmış bu şəraitdən yararlana biləcəklər. İnanırıq ki, Çinin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Azərbaycanla əməkdaşlığımız daha da genişlənəcək. Sian-Bakı qatar yolu bu istiqamətdə atılan vacib addımlardan hesab edilə bilər".

Çinin Azərbaycandakı səfirliyinin ticarət və iqtisadi məsələlər üzrə müşaviri Van Çunqan isə bildirir ki, Azərbaycan Çinin "Bir kəmər, bir yol" layihəsinin vacib tərəfdaşlarındandır. O qeyd edib ki, energetika, ticarət, turizm və kənd təsərrüfatı sahələrində əməkdaşlıq daim genişlənir.

Hesablamalara əsasən isə, 2020-ci ilə qədər Şərq-Qərb istiqamətində Çin tərəfdən Qərbə göndərilən yüklər 5 dəfə artaraq 1,3 milyon konteynerə çatacaq. Bunun 300 mini məhz Qafqaz marşrutu ilə daşınacaq. Azərbaycan və Qazaxıstandan keçməklə Avropadan Mərkəzi Asiya ölkələrinə və Çinə və əks istiqamətdə yük axını iki dəfədən çox artacaq. Məhz belə vəziyyətdə Bakı-Tiflis-Qars üzərindən yükdaşımalar əhəmiyyətli dərəcədə artacaq ki, bu da tranzit yükdaşımalarının ölkəmizə daha çox gəlir gətirməsi deməkdir. Çinin sözügedən dəmir yoluna marağının artması isə təbii qarşılanır. İlk növbədə o baxımdan ki, Bakı-Tiflis-Qars Avropanın və Asiyanın dəmir yol şəbəkələrinin ən qısa yolla birləşdirilməsini təmin edir və yüklərin daşınmasına sərf edilən vaxtı iki dəfədən çox qısaltmağa imkan verir. Digər tərəfdən, yuxarıda qeyd olunduğu kimi, bu dəmir yolu Çinin elan etdiyi, Azərbaycan da daxil olmaqla bir sıra ölkələrin dəstəklədiyi "Bir kəmər - Bir yol" iqtisadi inkişaf strategiyası prizmasından nəzərdən keçirilir. Bakı da yaranmış durumda Çinlə əməkdaşlığın genişlənməsinə xüsusi diqqət ytierir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanın Çindəki növbəti ticarət evi Şansi vilayətinin mərkəzi Sian şəhərində açılacaq. İqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, ticartə evinin cari ilin sonunadək açılması nəzərdə tutulur: "Ötən ilin statistikasına əsasən, Azərbaycanla Çinin ticarət dövriyyəsi Çinin Cənubi Qafqaz ölkələri ilə olan ümumi ticarət dövriyyəsinin 43 faizini təşkil edib. Bu ilin ilk 5 ayında isə Azərbaycanla Çinin ticarət dövriyyəsi 1 milyard dolları ötüb ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 2,6 dəfə artım deməkdir".

Onu da xatırladaq ki, bu yaxınlarda Pekində baş tutan "Bir kəmər, bir yol" strategiyası çərçivəsində ikinci beynəlxalq əməkdaşlıq forumu zamanı Azərbaycan və Çin şirkətləri arasında ümumi dəyəri 821 milyon ABŞ dolları olan müxtəlif istiqamətlər üzrə 10 sənəd imzalanıb.

Daha sonra Sumqayıt Kimya Sənaye Parkı ərazisində şin istehsalı zavodunun qurulmasına, Kürdəmir rayonunda 300 hektaradək sahədə müasir istixana kompleksinin tikintisinə, Quba, Xaçmaz və Göyçayda aqro-logistik sənaye parklarının yaradılmasına, "Azerbaijan Digital HUB" proqramı çərçivəsində Asiya-Avropa telekommunikasiya dəhlizinin yaradılmasına, "Transxəzər" nəqliyyat dəhlizi vasitəsilə Bakıya və Azərbaycan ərazisindən tranzit keçməklə digər ölkələrə 2500-dək konteynerin daşınmasına, Azərbaycan istehsalı şərab və digər spirtli içkilərin Çinə ixracına, Çinin Çendu şəhərində Azərbaycan Ticarət Evinin yaradılmasına dair Əməkdaşlıq Memorandumu imzalanıb. Bunlar Azərbaycanla Çin arasında iqtisadi əlaqələrin getdikcə daha güclü hala gəlməsinə rəvac verir.

***Nahid SALAYEV***

# ATƏT PA-nın komitə iclasında erməni deputatların Azərbaycanın 7 rayonu üzərində dolaşdırıcı oyunu...

**Lüksemburqda ATƏT PA-nın 28-ci illik sessiyası çərçivəsində Siyasi Məsələlər və Təhlükəsizlik üzrə Ümumi Komitəsinin iclası keçirilib. İclasda Azərbaycan üçün xüsusi əhəmiyyətli, olduqca vacib məsələ müzakirə edilib. Belə ki, irlandiyalı deputat Alan Farrellin "Təhlükəsizliyin möhkəmləndirilməsi naminə davamlı inkişafa kömək: parlamentarilərin rolu" mövzusunda məruzəsində dondurulmuş münaqişələr məsələsinə toxunub.**

Bu məruzədən sonra təklif olunmuş Yekun Qətnaməyə düzəlişlərlə bağlı kəskin debatlar olub. Erməni tərəfi bütün gücünü, lobbi fəaliyyətini işə salaraq Yekun Qətnaməyə düzəlişlərdə öz variantlarının keçməsinə çalışıb. Aydın məsələdir ki, Azərbaycan nümayəndə heyəti beynəlxalq hüququn ali prinsiplərini əsas götürərək, diplomatik ustalıqla, ölkəmiz üçün mühüm əhəmiyyət daşıyan məqamları müdafiə edə bilib. Komitənin məruzəçisi, irlandiyalı deputat Alan Farrellin hazırladığı Hesabat və Qətnamədə Ermənistan-Azərbaycan münaqişəsi və ATƏT regionunda davam edən digər münaqişələrin həlli prosesi haqqında vacib müddəalar yer alıb. Hesabatda Azərbaycanın Dağlıq Qarabağ bölgəsi, eləcə də Gürcüstan, Ukrayna və Moldovada davam edən münaqişələrin həllinin hələ də tapılmaması ilə bağlı narahatlıq bildirilib, eləcə də onların həllinin hüquqi bazasını təşkil edən sənədlərin siyahısı öz əksini tapıb. Azərbaycanın ərazisində davam edən münaqişəyə dair BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri (1993), BMT Baş Assambleyasının 2008-ci ildə qəbul etdiyi 62/243 saylı Qətnaməsi, həmçinin, ATƏT-in Minsk Qrupunun faktaraşdırıcı missiyasının 2005-ci ildə hazırladığı hesabatı və ATƏT PA-nın 2015-ci il Helsinki illik sessiyasında Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin üzvü, qurumun vitse-prezidenti Azay Quliyevin müəllifi olduğu "ATƏT ərazisində dövlətlərarası münasibətlərdə Helsinki prinsiplərinə bağlılıq" haqqında qətnaməsi göstərilib. Bundan əlavə, Hesabatda qeyd edilib ki, "ATƏT PA qarşılıqlı etimadın möhkəmləndirilməsi istiqamətində münaqişə tərəfləri arasında işlərin görülməsini, xüsusən humanitar sahədə addımların atılmasını və onların siyasi proseslərlə uzlaşdırılmasını, məsələn, 1949-cu il tarixli Cenevrə konvensiyalarının müvafiq bəndləri ilə götürülməsi qadağan olunmuş əsir və girovların "hamının hamıya" prinsipi əsasında mübadiləsini dəstəkləyir". Cari ilin iyun ayında Ermənistan və Azərbaycan arasında baş vermiş girovların mübadiləsi fonunda bu məqam da xüsusilə aktual xarakter alır. Ərazisi 3 dəfə, əhalisi isə Dağlıq Qarabağdan təxminən 7 dəfə çox olan 7 ətraf rayonun bu sənəddə sadalanmasının əhəmiyyəti xalqımız və dövlətimiz üçün şübhə yaratmır. Bu müddəaları Assambleyanın sənədlərinə daxil etməklə ölkəmiz tarixi ədalətin bərqərar olunmasına bir addım da yaxınlaşmış olur, bu da beynəlxalq ictimaiyyətin erməni təbliğatının təsirindən "müdafiə" olunmasına öz töhfəsini verəcək.

Ermənistan KİV-i isə iddia edir ki, onlar Azərbaycan tərəfinin irəli sürdüyü bir sıra düzəlişlərin Yekun Qətnaməyə düşməsinin qarşısını ala biliblər. Onlar iddia edirlər ki, xüsusilə də "ətraf 7 rayon" ifadəsinin yekun sənəddə qeyd edilməməsinə nail olublar. Həmçinin, sevinclə qeyd edirlər ki, münaqişənin həllində Minsk Qrupu çərçivəsində həlli sənəddə qeyd edilib. Bu xüsusda üç əsas prinsipin rəhbər götürüldüyünü bildirirlər. Əslində isə ATƏT-in Minsk Qrupu çərçivəsində münaqişənin həllində maraqlı olmayan ermənilərin özüdür. Onda isə yaratdıqları bu ajiotajın səbəbi nə ilə bağlıdır?

ATƏT PA-nın nümayəndə heyətinin sədr müavini, Milli Məclisin deputatı Tahir Mirkişili "Bakı-Xəbər"in sorğusuna cavabında bildirdi ki, ATƏT Parlament Assambleyasının Lüksemburqda keçirilən 28-ci illik sessiyası "Təhlükəsizliyin təmin olunması üçün dayanıqlı inkişafın gücləndirilməsi: Parlamentlərin rolu" mövzusuna həsr olunub: " Müzakirələrə müxtəlif məsələlərə toxunulsa da, əsas müzakirələrin Siyasi İşlər və Təhlükəsizlik Komitəsində gedəcəyini hər kəs əvvəlcədən bilirdi. Çünki məhz bu komitənin hazırladığı qətnamə layihəsində regionda münaqişələrin həlli üçün tamamilə yeni yanaşmalar əksini tapmışdı. ATƏT Parlament Assambleyasının bütün sənədlərində mövcud münaqişələrin dayanıqlı inkişaf və insan hüquqlarının təminatı üçün əsas maneə olması xüsusilə vurğulanırdı. Belə münaqişələrdən biri kimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi göstərilirdi. Ermənistanın diplomatik xidmətinin əvvəlcədən müxtəlif ölkələrlə apardığı aktiv danışıqlara və Ermənistan nümayəndə heyətinin ATƏT Parlament Assambleyasında etdiyi çoxsaylı çıxış və görüşlərə baxmayaraq, Azərbaycan nümayəndə heyətinin, xüsusilə ATƏT PA-nın vitse-prezidenti Azay Quliyevin aktiv səyi nəticəsində siyasi komitənin qətnamə layihəsində konfliktlərin həlli üçün yeni yanaşma öz əksini tapdı.




Nə idi bu yeni yanaşma:

1. ATƏT və digər beynəlxalq təşkilatların ənənəvi yanaşmasından fəqrli olaraq, ilk dəfə Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova ərazisində olan konfliktlərə eyni yanaşmanın tətbiq olunmasının vacibliyi sənəddə öz əksini tapdı. İndiyə qədər müxtəlif ölkə və təşkilatlar xüsusilə Dağlıq Qarabağ münaqişəsini digər münaqişələrdən ayırmaq və xüsusi yanaşma tətbiq etmək çağırışları edir və bu mövqedən çıxış edirdilər. Hətta Ermənistan nümayəndə heyəti də sənədə dəyişiklik edilərək, Azərbaycanın adının bu siyahıdan çıxarılmasını, amma Ukrayna, Gürcüstan və Moldovanın adının saxlanmasını təklif etmişdi. Bütün bu səylərə baxmayaraq, konfliktlərə bu cür vahid yanaşmanın sənəddə öz əksini tapması mühüm hadisə oldu. Ermənistanın Azərbaycanın adının siyahıdan çıxarılmasını təklif etdiyi dəyişiklik 41 əleyhinə, 6 lehinə olmaqla böyük səs çoxluğu ilə rədd edildi.

2. Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova ərazilərində olan münaqişələrin suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsipi əsasında həlli üçün nəticə yönümlü danışıqların aparılmasına çağırış öz əksini tapdı. Bu isə Ermənistanın öz müqəddəratını təyin etmə prinsipindən sui-istifadə etməsinin qarşısını alır.

3. Sənəddə razılaşdırılmış danışıqlar formatının dəyişdirilməsinin yolverilməz olduğu birmənalı qeyd olunur. Bu da Ermənistanın son bir ildə qondarma və separatçı Dağlıq Qarabağ rejiminin danışıqlar masasına gətirilməsi cəhdinin bir daha iflasa uğraması deməkdir.

4. Sənəddə münaqişə ərazisi kimi yalnız Azərbaycanın göstərilməsi Dağlıq Qarabağ və işğal olunmuş ətraf rayonların Azərbaycan ərazisi olduğunu bir daha təsdiq edir.

5. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnamədən sonra ATƏT PA-nın Azərbaycanda olan münaqişənin ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərinin toxunulmazlığı prinsipi əsasında həll olunmasının vacibliyini rəsmən qeyd etməsi və bu müddəaların bir daha təzələnməsinin siyasi təsiri və gücü xüsusilə qeyd olunmalıdır.

6. Bu qətnamə ATƏT-in Minsk Qrupunun Dağlıq Qarabağ münaqişəsinin Helsinki Yekun Aktının prinsiplərinə uyğun - güc tətbiq etməmə, ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etmə hüququ əsasında həll olunma prisiplərinə bir daha aydınlıq gətirdi, münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərinin toxunulmazlığı prinsipi əsasında həllinə rəsmi dəstək verdi.

7. Bu maddənin qəbulu Azərbaycan diplomatiyasına beynəlxalq müstəvidə münaqişə ilə bağlı müzakirə aparılan və müvafiq sənəd qəbul olunan zaman haqlı mövqeyimizi qorumaq və müdafiə etmək üçün daha bir sanballı və ciddi hüquqi və siyasi əsas yaratmış oldu.

Bu qətnamə ATƏT PA-nın siyasi məsələlər və təhlükəsizlik komitəsinin hazırladığı və qəbul etdiyi sənəd olduğundan, onun çox böyük siyasi əhəmiyyəti var.

Xatırladım ki, ATƏT Parlament Assambleyasının Prosedur Qaydalarının 7-ci hissəsinin 42-ci qaydasına görə, qəbul olunmuş bu mühüm sənəd ATƏT-in Nazirlər Şurasına təqdim edilir və eyni yanaşmadan danışıqlarda istifadə üçün tövsiyə edilir. Bu baxımdan qəbul edilmiş qətnamə layihəsinin Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın maraqları çərçivəsində həlli üçün yeni diplomatik nailiyyətdir.

Dağlıq Qarabağ və işğal olunmuş rayonların ATƏT Parlament Assambleyası iclaslarında intensiv müzakirəsi həm də üzv ölkələrin nümayəndə heyətlərinin Azərbaycan həqiqətlərini daha çox qəbul etmələrinə səbəb oldu".

Beləliklə, yuxarıda qeyd edilənləri nəzərə alsaq, əminliklə deyə bilərik ki, Assambleyanın 28-ci illik sessiyasında qəbul olunmuş bu sənədlər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dəstəyin göstərilməsini öz üzərinə götürən ATƏT və onun Parlament Assambleyasının Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipinə tam olaraq sadiq qalmasının göstəricisidir. Sadəcə, ənənəvi hal kimi erməni tərəfi sənədi öz xeyrinə manipulyasiya etmək istəyir. Beləliklə, ATƏT regionuna daxil olan ölkələrin ali səviyyədə təhlil etdiyi və xarici siyasətinin istiqamətlərinin müəyyən edilməsində nəzərə alındığı bu cür sənədlərdə dövlətimizi artıq 30 ildən çoxdur narahat edən əsas məsələyə, xalqımızın milyona yaxın nümayəndəsinə və ölkəmizin büdcəsinə milyardlarla zərər vuran münaqişəyə dair bu cür prinsipial əhəmiyyətə malik olan müddəaların daxil edilməsi Azərbaycan diplomatiyasının növbəti uğuru kimi nəzərdən keçirilməlidir.

***Məhəmmədəli QƏRİBLİ***




## Azərbaycan uydurma "DQR"ə daha bir qanunsuz beynəlxalq dəstək kanalını bağladı

***Elşən Əliyev:** "Oradakı rejim qanuni olmadığı üçün, xaricdən daxil olan vəsaitlərin qanuni olub-olmadığını yoxlamaqda heç maraqlı da olmur"*

**Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının maliyyə bazarları, o cümlədən ödəniş sistemləri sahəsində həyata keçirdiyi tənzimləmə və nəzarət çərçivəsində Azərbaycan Respublikasının işğal altında olan ərazilərində fəaliyyət göstərən banklar tərəfindən beynəlxalq kart təşkilatlarının brendini daşıyan ödəniş kartlarına xidmət göstərilməsi faktları müəyyən edilib.**

Həmçinin, qondarma "Dağlıq Qarabağ Respublikası"nın "maliyyə nazirliyinin" rəsmi internet səhifəsi üzərindən maddi yardımın toplanması faktı aşkarlanıb. Bu barədə Maliyyə Bazarlarına Nəzarət Palatasının yaydığı məlumatda deyilir.

Qeyd edilir ki, bu faktların mövcudluğu ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün, beynəlxalq hüquqi normaların pozulması, "çirkli pulların yuyulması" və terrorizmin maliyyələşdirilməsi baxımından əlverişli şəraitin yaradılması, habelə beynəlxalq kart təşkilatları tərəfindən müəyyən edilmiş tələblərin gözlənilməməsi deməkdir. Palata tərəfindən aşkar olunmuş faktlar əsasında "Visa Inc." və "MasterCard Worldwide" beynəlxalq kart təşkilatının rəhbər nümayəndələri ilə görüşlər keçirilərək? bu təşkilatların brendini daşıyan ödəniş kartlarına işğal olunmuş ərazilərdə xidmət göstərilməsinin təxirə salınmadan dayandırılması diqqətə çatdırılıb. Həyata keçirilən kompleks tədbirlər və birgə fəaliyyət nəticəsində qondarma "Dağlıq Qarabağ Respublikasının" "maliyyə nazirliyinin" rəsmi internet səhifəsi üzərindən beynəlxalq kart təşkilatlarının brendini daşıyan ödəniş kartları ilə maddi yardımların toplanması, habelə işğal olunmuş ərazilərdə bir sıra bankların bankomat şəbəkəsi üzərindən bu ödəniş kartlarının qəbulu dayandırılıb. Palata ödəniş sistemləri sahəsində tənzimləmə və nəzarət çərçivəsində Azərbaycan Respublikasının işğal altında olan ərazilərində fəaliyyət göstərən banklar tərəfindən beynəlxalq kart təşkilatlarının brendini daşıyan ödəniş kartlarına xidmət göstərilməsinin daim monitorinq edərək, müvafiq tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanır. Göründüyü kimi, Azərbaycan bu fəaliyyəti dayandırmaqla qondarma qurumu ciddi bir kanaldan yararlanmaq haqqından məhrum edib. Həmin beynəlxalq kart təşkilatlarının işğal olunmuş ərazilərdəki fəaliyyəti "DQR"ə hansı maliyyə dividendləri gətirirdi və onlar bununla nələrdən məhrum oldular? İqtisadçı Elşən Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanın bu səyi ilə əldə olunan nəticəni qənaətbəxş saya bilərik: "Bilirsiniz ki, həmin ərazini müstəqil qurum kimi heç bir ölkə tanımır. Ancaq faktiki olaraq həmin ərazilərdə ermənilər yaşayır və bir sıra işlər görürlər. "DQR"in əsas himayəçisi rolunda çıxış edən Ermənistanın özünün ora lazımı şəkildə maddi yardım etmək, orda icra olunan layihələrə maddi dəstək vermək kimi gücü yoxdur. Artıq bir sıra hesabatlarda dəqiq təsbit olunub ki, Ermənistan həmin ərazilərdən həm də terrorizm, narkotrafik üçün istifadə edir. Eyni zamanda orada süni məskunlaşma aparır. Təbiidir ki, bütün bu fəaliyyətlər beynəlxalq aləmlə kommunikasiya və maliyyə mübadiləsinin olmasını tələb edir. Bu baxımdan beynəlxalq kart sisteminin fəaliyyəti onlar üçün çox əlverişlidi. Bu vasitə ilə separatçı qurum ərazisində olan istənilən şəxsə istənilən məbləğdə pul köçürülə bilər. Ordakı rejim qanuni olmadığı üçün xaricdən daxil olan vəsaitlərin qanuni olub-olmadığını yoxlamaqda heç maraqlı da olmur. Bu da faktdır ki, qondarma qurum ərazisində bir sıra qanunsuz layihələr icra olunur. Elanlarda bildirilir ki, onlara maliyyəni dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni fondları ötürür. Həmin layihələrin maliyyələşməsində də əlverişli variant kimi kart sistemindən istifadə olunub. Ən əsası isə, qondarma rejimin tez-tez təşkil etdiyi iənə toplama marafonlarına vəsaitlər bu vasitə ilə daxil olurdu. Bu qadağa bütün hallarda qondarma rejimə maliyyə əməliyyatlarını həyata keçirməkdə çətinlik yardacaq. Çox təqdirəlayiq haldı. Ancaq bu iş davamlı olmalıdır. Çünki ordakı rejim yalnız sözügedən iki kart ödənişlərindən istifadə etmir. Ora daxil olan maliyyə marşrutunu tam müəyyən edib, digər beynəlxlaq qurumların da fəaliyyətinə son verməyə çalışmalıyıq. Çünki beynəlxlaq maliyyə qurumları bir qədər siyasi proseslərdən uzaq olur. Məsələnin mahiyyəti onlara tam çatdırılanda, onlar maksimum dərəcədə reputasiyalarını qorumaqda maraqlı olurlar. İstəməzlər ki, adları çirkli işlərdə hallansın".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistan parlamentində yüksək post tutan Ruben Rubinyan ATƏT Parlament Assambleyasının Lüksemburqda keçirilən 28-ci illik sessiyası ilə bağlı xəbər yayıb. O özünün "Facebook" səhifəsində yazıb ki, erməni nümayəndə heyəti orada iki mühüm "nailiyyətə" imza atıb.**

# Ermənistanın ATƏT PA-da nümayəndə heyəti saxta genosid barədə hay-küylü xəbər yaydı...

***Yeganə Hacıyeva:** "ATƏT Parlament Assambleyası tarixi hadisələri işıqlandıran, onun istintaqını aparan və ən sonda ona qiymət verən qurum deyil"*



Onun sözlərinə görə, guya erməni nümayəndə heyəti yekun sənəddə qeyd olunan "erməni soyqırımını tanımaq" kimi çağırışın türk və azərbaycanlı deputatların təkidli tələblərinə baxmayaraq, abzasdan çıxarılmamasına nail olub. Onda belə çıxır ki, ATƏT-in müzakirə etdiyi məsələlərlə bağlı qəbul edilən sənədlərin sırasında sözügedən ifadə olub. Beynəlxalq qurum belə bir yanlışlığa necə yol verə bilər? Ola bilərmi ki, bununla ermənilər ATƏT-in tədbiri ətrafında süni ajiotaj yaratmaq istəyirlər?

Maraqlıdır ki, ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Azay Quliyev tədbirin sonu ilə bağlı ifadə etdiyi mövqeyində belə bir məqamın olduğuna toxunmayıb. Əksinə, Azay Quliyev qəbul edilən yekun sənədi Azərbaycan diplomatiya tarixində növbəti uğur kimi qiymətləndirib və ATƏT PA-nın sonuncu Hesabat və Qətnaməyə dair bəzi məqamlara nəzər salmağı vacib bilib: "ATƏT PA-nın ümumi komitələrinin hazırladığı və qurumun illik sessiyalarında qəbul olunan bu sənədlərin əhəmiyyəti nədən ibarətdir? Qurumun Prosedur Qaydalarına nəzər salsaq görə bilərik ki, qaydaların 42-ci maddəsinə əsasən, Assambleyanın illik sessiyalarında qəbul olunan sənədlər ATƏT-in Nazirlər Şurasına baxılması üçün göndərilir. Nazirlər Şurası ATƏT-in mərkəzi qərar qəbul edən orqanıdır və burada ATƏT-ə üzv olan ölkələrin xarici işlər nazirləri iştirakçı qismində çıxış edirlər. Bu da o deməkdir ki, həm Hesabat, həm də qətnamələrdə əks olunan müddəalar vasitəsilə 57 ölkənin xarici siyasətində istiqamətləndirici rol oynayan şəxslərə birbaşa olaraq çıxış əldə etmək mümkündür, bunun da böyük siyasi əhəmiyyəti şübhə doğurmur.

İkincisi, illik sessiyalarda qəbul olunan sənədlərdə ATƏT-in və onun Parlament Assambleyasının beynəlxalq gündəmin aktual və narahatlıq doğuran məsələlərinə dair qurumun rəsmi mövqeyi öz əksini tapır. Sənədlər qüvvəyə mindikdən öncə ciddi filtrasiya prosedurundan keçir və hər bir müddəa yalnız ümumi konsensus əldə edildikdən sonra yekun sənədə daxil edilir. Bu və ya digər bəndin yekun sənədə daxil edilməsi uzun və bir çox potensial maneənin ortaya çıxa biləcəyi bir prosesdir və bu cür şəraitdə ölkələrin çoxluğunun razılığını əldə edərək müxtəlif məqsədlər güdən ölkə qruplaşmalarının təklif edilən bəndlərə veto qoymaq cəhdlərinin qarşısını almaq ciddi siyasi uğur kimi nəzərdən keçirilməlidir".

**Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ATƏT Parlament Assambleyası tarixi hadisələri işıqlandıran, onun istintaqını aparan və ən sonda ona qiymət verən qurum deyil:** "Hər bir beynəlxalq təşkilatın öz mandatı var. Onun daxili nizamnaməsində fəaliyyət sferası konkret qeyd edilir. Həmin mandat, birmənalı olaraq, tarixi hadisələr ətrafında müzakirələr aparmağa icazə vermir. Erməni nümayəndə heyəti bu məqamla manipulyasiya etmək istəyir. Hər hansı erməni millət vəkilinin orada verdiyi təklif heç də "soyqırım" müzakirəsi və ya həmin bəndin rəsmi sənədə salındığı anlamına gələ bilməz. ATƏT PA ifrat siyasiləşmiş bir təsisatdır. Çünki üzv ölkələrin parlamentlərinin siyasi fraksiyalarından təşkil olunur. Belə formatda hansısa tarixi hadisəyə qiymətin verilməsi qeyri-obyektivliyə gətirib çıxarar və ciddi siyasi gərginliklərə səbəb ola bilər. Erməni nümayəndə heyətinin bununla bağlı verdiyi informasiya həqiqəti əks etdirmir. Orada "soyqırım" haqda fikirlər yalnız erməni nümayəndə heyətinin çıxışları əsasında səslənib. 1987-ci ildə Avropa Birliyinin yeni formalaşdığı ərəfədə qurumun daxili bir qərarı oldu. Həmin qərarda bildirilirdi ki, analoji tarixi qərarlara yalnız müəyyən olunmuş instansiyalar rəy verə bilər. Bunlar: Beynəlxaq İnsan Haqları Məhkəməsi, Avropa İnsan Haqları Məhkəməsi və bu instansiyaların rəyləri və qərarlarına əsaslanan BMT Təhlükəsizlik Şurasının qərarlarıdır. ATƏT PA-nın adı bu siyahıda yoxdursa, ermənilərin canfəşanlığı başadüşülən deyi. Belə olan təqdirdə, bunu manipulyasiyadan başqa nəsə saymaq olmaz. Mənim sadaladığım fikirlər beynəlxalq hüququn predmetləridir. Yəni mənim şəxsi fikirlərim deyil. Siz bunu başqa ölkənin mütəxəssisindən soruşsanız da analoji cavabı alacaqsınız. Erməni nümayəndə heyətləri bütün tədbirlərdə, yeri gəldi-gəlmədi, saxta soyqırım məsələsini gündəmə çıxarmağa cəhdlər edirlər. Bu da onlardan biridir. Belə məsələnin müzakirəsi yalnız hüquqi əsas olduqda mümkün ola bilər. Yuxarıda dediyim instansiyaların çıxardığı məhkəmə qərarlarının əsasında, dövlətlərin xüsusi komissiyasının iştirakı ilə mümkündür. Türkiyədə bir əsirdən çox bundan əvvəl baş vermiş hadisəyə təbii ki, Avropanın müasir deputatı rəy verə bilməz. Bundan erməni deputatlar daxili auditoriya üçün hesablanan gedişlər edirlər.

Eyni zamanda, onları maliyyələşdirən lobbi qrupları qarşısında işi yarıtdıqlarına dair hesabat verirlər. Bununla Paşinyanın deputatları erməni milli maraqlarına tam sadiq olduqlarına dair rəy formalaşdırmaq istəyirlər. Sənədlərdə bununla bağlı erməni nümayəndə heyətindən olan bir deputatın etdiyi təklif öz əksini tapıb. Bundan Paşinyan deputatlarının ucuz piar düzəltmək cəhdləri olduqca gülməli görünür".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənilər Sevan oyunu ilə Xruşovdan sonra indi də BMT baş katibini "fırlatmağa" çalışırlar...

## Qasım Hacıyev: "Ermənistan Sevan məsələsində BMT-ni aldadıb öz toruna sala bilməyəcək"

**Erməni saxtakarlığı qırxayaq kimi bütün Cənubi Qafqazı ağzına alıb. Azərbaycan da daxil olmaqla, başqa ölkələrə qarşı ərazi iddialarından əl çəkmədikləri bəs etmir, digər xalqlara məxsus dəyərləri mənimsəməyə çalışırlar. Adı bütün qədim kitabələrdən, eləcə də "Kitabi Dədə Qorqud" dastanından qədim türklərə məxsus olan Göyçə gölünü on illərdir ermənilər özününküləşdirməyə çalışırlar.**





*"Ermənilərin bütün saxtakarlıqları beynəlxalq ictimaiyyətə gün kimi aydındır"*

Qərbi Azərbaycanda yerləşən Göyçə gölünün adını dəyişdirərək Sevan qoyan bədnam qonşularımız indi də başqa bir kələyə əl atırlar. Ermənilər iddia edirlər ki, Göyçə gölünün ekoloji vəziyyəti kəskin pisləşib və göldə yaşıllaşma başlayıb. Yəni Göyçə gölü mamırlarla örtülür. Hətta ermənilər BMT-nin baş katibinə müraciət edərək Sevan gölünün təhlükə ilə üzləşdiyini və bunun üçün də UNESCO-nun təhlükə altında olan dəyərlər siyahısına salınmasına dəstək göstərməsini istəyirlər.

Ermənistanın Göyçə gölündən bir sıra məqsədlər üçün istifadə etdiyi məlumdur. Hətta gölün kənarında böyük bir turizm məkanının yaradıldığı da faktdır. Onlar turistləri bu məkana cəlb etmək üçün yüz oyundan çıxırlar.

Erməni mətbuatı özü yazır ki, Göyçə gölü (Sevan) pis idarəçilik və oliqarxların biznes maraqlarının qurbanına çevrilib.

Hətta Ermənistanın Kimya-fizika İnstitutunun baş elmi əməkdaşı Seyran Minasyan da mətbuata bununla bağlı çox həyəcanlı məlumatlar verib. O qeyd edib ki, gölün ekoloji vəziyyəti pisləşib və o yaşıllaşaraq tədricən bataqlığa çevrilir.

Ermənistanın Göyçə gölünü qəsdən çirkləndirməsinə dair fikirlər də mövcuddur. Gölə tullantıların atılması, onun zibilləndirilməsi və s. haqda danışılır.

Ermənistan Göyçə gölündə yaranan yaşıllaşma ilə bağlı həyəcan təbili çalır. Məqsəd Göyçə gölünə (Sevan) UNESCO tərəfindən status verilməsinə nail olmaqdır.

Mütəxəssislər hesab edirlər ki, ermənilərin Sevana UNESCO-dan status almaq niyyətinin kökündə onların növbəti saxtakarlığı və məkrli planları dayanır. Bu gün ermənilər belə addımlarla beynəlxalq qurumlardan pul qoparmaq məqsədi güdürlər. Onlar bununla belə təəssürat yaratmaq istəyirlər ki, guya mədəni irsin qorunmasına çalışırlar.

Məlum olduğu kimi, ermənilər ilk dəfə deyil ki, Sevan oyunu oynayırlar. Qərbi Azərbaycanda yerləşdikdən sonra buradakı bütün abidələrə, çaylara, göllərə və sairə qarşı məkrli niyyətlər ortaya qoyan ermənilər hələ Sovet dövründə Sevanla bağlı bir sıra saxtakarlıqlar həyata keçiriblər. Tarixdən məlumdur ki, ermənilər o vaxtkı SSRİ rəhbəri olan N.Xruşovu aldadıblar. Onlar Xruşova yalan satıblar ki, Göyçə gölü quruyur və buradakı farellər məhv olur. Göyçə gölündə qızıl balıq olmadığı halda, onlar ordan-burdan farel (ala balıq) alaraq gölə buraxdılar və belə rəy yaratdılar ki, guya burada farel var və həmin balıqlar gölün quruması nəticəsində tələf olurlar. Xruşov da erməni yalanına uyaraq göstəriş vermişdi ki, Arpaçayın bir qolu Sevan gölünə yönəldilsin. Qızıl balığın dadına aldanan Xruşovun verdiyi qərar nəticəsində Azərbaycanın qədim çaylarından olan Arpaçayın bir axarı Sevana axmağa başladı.

*"Xruşov isə ermənilərin o vaxtkı müraciətini araşdırmadan..."*

Ermənilər Xruşova qarşı oynadıqları bu oyunu indi də BMT təsisatı olan UNESCO-ya qarşı oynamaq istəyirlər. Onlar "Sevanda yaşıllaşma başlayıb" deyə car çəkməklə dünya ictimaiyyətinin başına corab hörməyə çalışırlar. Əlbəttə, burada məqsəd Ermənistanın bu qurumdan pul qoparmaq cəhdi olsa da, daha böyük məqsəd də diqqətdən yayınmır. Ekspertlərin bildirdiyinə görə, Ermənistan Sevana status almaqla bu gölün ermənilərə məxsus olduğunu təsdiqlətmək istəyir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, Göyçə gölü XX əsrin sonlarına qədər ətrafında azərbaycanlıların məskunlaşdığı, Cənubi Qafqazda ən iri göllərdən biridir. Q.Hacıyevin sözlərinə görə, Göyçə gölü tarixən bizə məxsus olub və azərbaycanlılar dədə-baba yurdlarından, Qərbi Azərbaycandan ermənilər tərəfindən deportasiya edildikdən sonra isə digər dəyərlərimiz kimi, bu gölə də bədnam qonşularımız yiyələnmək istəyiblər. "Ermənilərin saxtakarlığı, məkrli niyyətləri bütün dünyaya məlumdur. Bu gün Ermənistan UNESCO ilə əməkdaşlıq etmək, bu beynəlxalq təşkilatın ayırdığı vəsaitlərdən yararlanmaq üçün özünü yüz şəklə salır. Göyçə gölü tarixi Azərbaycan torpaqlarında yerləşir və bu göl birbaşa bizə aiddir. Ermənistanın UNESCO-dan bu gölə status verməsini istəməsi, bu barədə sözügedən quruma müraciət etməsi əsassızdır. Mən inanmıram ki, ermənilər Xruşovu aldatdıqları kimi, BMT-ni və onun təsisatlarını da aldatmağa müvəffəq ola bilərlər. Çünki BMT və UNESCO onlara edilən hər bir müraciəti daha dərindən, ətraflı şəkildə araşdırırlar. Xruşov isə ermənilərin o vaxtkı müraciətini araşdırmadan Arpaçayın bir qolunun Sevana birləşdirilməsi barədə kor-koranə qərar qəbul etmişdi. Onlar Xruşovu çox asanlıqla aldada bildilər, çünki onun ətrafındakı erməni şəbəkəsi bütün vasitələrdən istifadə edərək keçmiş SSRİ rəhbərini öz istəklərinə alət etməyi bacardı.

**Hesab edirəm ki, Ermənistan Sevan məsələsində BMT-ni aldadıb öz toruna sala bilməyəcək. Ona görə ki, artıq ermənilərin bütün saxtakarlıqları beynəlxalq ictimaiyyətə gün kimi aydındır. Vaxtilə ermənilər Arpa və Araz çaylarına qarşı saysız təxribat törədiblər. Göyçə gölündə yaşıllaşmanın başlanmasına gəlincə, bunlar hamısı Ermənistanın oyunlarıdır. Göyçə gölündə bataqlıq yaranıbsa, gölü mamır tutubsa, bu, Ermənistanın Metsamor Atom Elektrik Stansiyasının, Razdan Elektrik Stansiyasının təhlükə yayması ilə bağlıdır" - deyə Q.Hacıyev qeyd etdi.**

***İradə SARIYEVA***

# "Şimal axını-2" əngəlləndi, Azərbaycan qazı Avropanın "burnunun ucuna" çatdı

**Son dövrlərdə ABŞ-Avropa-Rusiya üçbucağında təbii qazla bağlı ziddiyyətlərin daha kəskin hala gəlməsi aydın müşahidə olunur. ABŞ və bəzi Avropa ölkələri əvvəlki qaydada Rusiyanın daha böyük həcmdə təbii qazı Avropaya ötürməsinə qarşı çıxır.**

Kreml isə bir sıra Avropa ölkələri ilə sövdələşməyə gedərək tamam əks mövqedən çıxış edir.Bu durumda ekspertlər hesab edir ki, Rusiya qazı ilə bağlı Qərbdə ziddiyyətlər hələ müəyyən müddət davam edəcək. Məhz bu fonda yenə Qərbdə Azərbaycan qazına marağın getdikcə artması müşahidə olunur. Çünki Azərbaycan qazının Avropaya çatdırılması istiqamətində işlər nəzərdə tutulduğu qaydada gedir və yaxın tezlikdə bir sıra Avropa dövlətləri ölkəmizdən qaz idxalına start verəcək.

Burada onu da xatırladaq ki, "Cənub Qaz Dəhlizi"nin əsas seqmenti olan TANAP boru kəməri iyulun 1-dən etibarən Azərbaycan təbii qazının Avropaya nəql edilməsi üçün hazır vəziyyətə gətirilib. Dəhlizin son seqmenti olan TAP boru kəməri layihəsi də tamamlandıqdan sonra Azərbaycanın "Şahdəniz-2" layihəsi çərçivəsində çıxarılan təbii qaz TANAP və TAP kəmərləri vasitəsilə Avropaya nəql ediləcək, ölkəmizin gəlirlərini artıraraq Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verəcək. Artıq TAP üzrə bazar sınaqlarına da başlanıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır. TAP-ın icraçı direktoru Luka Sşieppati bu xüsusda deyib: "TAP 2020-ci ildən etibarən ilkin olaraq ildə təxminən 10 milyard kubmetr təbii qazı nəql etməyi planlaşdırır və Avropaya yeni bir qaz mənbəyi gətirir. Buna baxmayaraq, TAP öz ötürücülük gücünü ildə 20 milyard kubmetrə çatdırmaq imkanına malikdir. Hazırda layihə üzrə işlərin 88 faizdən çoxunun icra olunduğunu nəzərə alaraq, boru kəmərinin Avropaya qaz nəqli üçün gələcək tələbata uyğun olaraq genişləndirilməsini təmin etmək niyyətindəyik. Bu, əlavə qaz ehtiyatlarının Avropa bazarına çatdırılması üçün böyük fürsətdir". TAP Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. Avropada aparıcı media portallarından olan "bne Intellinews" bununla bağlı yazır ki, Qərbdə Azərbaycan qazına marağın sürətlə artması təbii haldır: "TANAP və TAP Rusiya qazına yeni alternativ yaradır. O, qaz nəqlini şaxələndirməyə və enerji təhlükəsizliyini artırmağa çalışan Avropaya Azərbaycan qazını Türkiyə ərazisi ilə çatdırmağa hazırdır. TANAP-ın Yunanıstan sərhədinə uzanan ikinci mərhələsi iyulun 1-dən etibarən fəaliyyətə başlayıb. Gələn il Türkiyə-Yunanıstan sərhədində TANAP TAP-la birləşdikdən sonra Azərbaycanın "Şahdəniz" yatağından Avropa bazarlarına qaz nəql ediləcək. Xəzər regionunun müstəqil postsovet ölkələrindən Avropaya qaz çatdırmaq fikri 1990-cı illərin əvvəllərində öz əksini tapıb və boru kəmərlərinin tamamlanması "Cənub Qaz Dəhlizi"ni gerçəkləşdirəcək. TANAP-ın tikinti layihəsi zamanı xərclərin qənaət edilməsi də diqqət cəlb edir: bir çox böyük infrastruktur layihələrində xərclərin əksəriyyətindən fərqli olaraq, təxmin edilən 11,7 milyard dollarlıq xərclər daha sonra 7 milyard dollara endirilib. Azərbaycan dünya səviyyəsində nümayiş etdirdi ki, həm ölkə daxilində, həm də xaricdə kompleks transmilli layihələri yüksək effektivliklə yerinə yetirmək qabiliyyətindədir. TANAP-ın həyata keçirilməsi zamanı SOCAR və onun tərəfdaşları təxminən 5 milyard dollar qənaət edib, layihənin ümumi dəyərini 40 faiz azaldıblar.

"Cənub Qaz Dəhlizi"nin əsas məqsədi Avropanın Rusiyadan qaz idxalına olan asılılığını azaltmaqdır, buna görə də, qitənin bir hissəsi Moskvanın "enerji diplomatiyasına" qarşı həssas olacaq. Bu, 2000-ci illərin ortalarında "qaz müharibələri" ilə daha da aktuallaşıb, çünki "Qazprom" tez-tez, əsasən Ukraynanı cəzalandırmaq üçün kranları bağlayıb. Rusiyanın 2014-cü ildə Krımı ilhaq etməsi ilə Rusiya və Ukrayna arasındakı qarşıdurma güclənib, bu olay Qərbin sanksiyalarına səbəb olub.

Belə vəziyyətdə, TAP başa çatdıqdan sonra, gələn ildən Azərbaycan Avropaya qaz ixrac etməyə başlayacaq. Bu qaz BP-nin başçılıq etdiyi beynəlxalq konsorsium tərəfindən hazırlanmış nəhəng "Şahdəniz" yatağının ikinci fazasından nəql olunacaq. "Stratfor" analitiki Yevgeni Çausovski qeyd edir: "TANAP-ın başa çatdırılması cari ildə qazın daşınması üçün əhəmiyyətli bir komponent kimi çıxış edir və Rusiyadan yan keçməklə, Azərbaycandan Türkiyə vasitəsilə Avropaya nəqlini nəzərdə tutur".

Bununla yanaşı, Rusiya öz boru kəməri infrastrukturunu Avropaya uzadır. Qitə hələ də Rusiyanın qazından çox asılıdır. "Şimal axını-2" və "Türk axını" kimi yeni boru kəmərləri Rusiyanın Ukraynadan yan keçməklə Avropa bazarlarına çıxışını təmin edəcək. "Qazprom" bu müddətdə, yerinə yetiriləcəyi dəqiqləşdirilməli olsa da, Ukrayna ilə qaz tranziti müqaviləsinin başa çatmasına, 2020-ci ilədək Baltik dənizi vasitəsilə Almaniyaya uzanacaq "Şimal axını-2" boru kəmərini tamamlamağa tələsir. 2019-cu ilin may ayından etibarən "Qazprom" əvvəlcədən nəzərdə tutulmuş 9,5 milyard avro dəyərində maliyyələşdirmənin 6 milyard avroluq hissəsini təmin edib və tikinti üçün, Danimarka istisna olmaqla, bütün icazələrin alındığını bildirib. Amma Avropada Azərbaycana diqqət daha çoxdur.




**Xüsusən də "Cənub Qaz Dəhlizi"nin açılması Azərbaycana, əlbəttə, fayda verəcək. Bu, ölkənin gəlirinə və Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək. Qaz ixracını artırma qabiliyyəti Azərbaycan iqtisadiyyatını gücləndirəcək. Rəsmi Bakı iqtisadiyyatını karbohidrogenlərdən asılı olaraq şaxələndirməyə, eləcə də yeni ixrac infrastrukturunun qurulmasına yönəldib. Avropanın ən kiçik iqtisadiyyatlarından biri olan Albaniya üçün də layihənin yeni imkanlar yaradacağı gözlənir. "Deloitte Albania"-nın baş meneceri Kseni Kakariqi bildirib ki, TAP "Albaniyanın enerji bazarını inkişaf etdirməkdə və ölkənin Qərbi Balkanlarda qaz qovşağı olmasında böyük rol oynayacaq. Qaza Cənub-Şərqi Avropanın çox hissəsində kömürə alternativ kimi baxılır".**

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Ermənilər oyun oynadılar və Qarabağ ətrafında rayonlarımızın işğalını etiraf etməyə məcbur oldular

**Dağlıq Qarabağ münaqişəsinin indiyə qədər həllinin uzanmasının ümdə səbəblərindən biri, heç şübhəsiz, beynəlxalq ictimaiyyətin məsələyə ikili standartlardan yanaşması, işğalçı Ermənistana lazımi təzyiqlər göstərməməsidir. Elə bundan irəli gəlir ki, Ermənistan hər vəchlə mövcud status-kvonun davam etdirilməsinə çalışır.**

Amma Azərbaycan dünya miqyasında diqqətə çatdırır ki, Ermənistanın bu siyasəti davam etdirilə bilməz və məsələ sülh yolu ilə həllini tapmasa, güc variantı işə düşəcək.

Qeyd edək ki, bu məsələ, xüsusən də Ermənistana təzyiqlər edilməməsi kimi məqam Sakit Okean Alyansının (SOA) Perunun paytaxtı Limada keçirilən 14-cü zirvə iclasında xarici işlər naziri Elmar Məmmədyarov tərəfindən bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılıb. Nazir bu xüsusda bildirib: "Beynəlxalq sülh və təhlükəsizliyi təmin etmək üçün hər cür səylər göstərərkən Azərbaycan hələ də qonşu Ermənistanın davam edən hərbi təcavüzü ilə üzləşir və bu, ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20%-nin, o cümlədən Dağlıq Qarabağ və yeddi ətraf rayonunun işğalına, təxminən 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkünün etnik təmizləməyə məruz qalmasına, Azərbaycanın işğal olunmuş ərazilərində çoxsaylı tarixi, mədəni və dini abidələrin məhv edilməsinə gətirib çıxarb. Təəssüf ki, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının vasitəçilik səyləri Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi və ərazi bütövlüyünün bərpası kimi nəticələri hələ də verməmişdir. Müzakirələrin bu konkret nəticəsi BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində, eləcə də ATƏT, Avropa İttifaqı və münaqişə ilə bağlı qərar qəbul edən dəmək olar ki, bütün beynəlxalq təşkilatların müvafiq sənədlərində təsbit edilmişdir. Münaqişənin sülh yolu ilə həll olunmasına və ATƏT-in vasitəçiliyi ilə danışıqlar prosesində fəal mövqe tutmağa səy göstərən Azərbaycan, beynəlxalq ictimaiyyətin Ermənistan tərəfindən Azərbaycan torpaqlarının qeyri-qanuni işğalının nəticələrini möhkəmləndirməyi nəzərdə tutan hər hansı fəaliyyətdə iştirakdan çəkinəcəyini və təcavüzkarın Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasına dair müvafiq BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməyə məcbur edən tədbirlər görəcəyini gözləyir".

Ekspertlər də vurğulayır ki, yalnız diplomatik dildən istifadə etməklə və real siyasi təzyiq olmadan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vəziyyətdə istənilən dəyişiklik olmayacaq. İndiki halda isə Ermənistanın münaqişənin həllində maraqlı olmaması və bu ölkəyə beynəlxalq ictimaiyyətinin loyal yanaşması danışıqların nəticəsiz qalmasına gətirib çıxara bilər. Bu zaman Azərbaycan öz gücü ilə işğal altında olan torpaqlarını azad etmək məcburiyyətində qalacaq. Bundan isə tək münaqişə iştirakçıları yox, regionda xüsusi marağı olan böyük güclər də zərər görə bilər. Beynəlxalq münaqişələr üzrə rusiyalı ekspert Yevgeni Mixaylov qeyd edir ki, savaşın başlanması Ermənistan üçün ciddi zərbə olacaq: "Ermənistan cəmiyyəti döyüşə can atmır, erməni isteblişmenti və bəzi hərbçilər haqqında bunu demək olmaz. Fikrimcə, ermənilərin çoxu anlayır ki, Azərbaycan ordusunun bu səviyyədə silahlanması qarşısında Ermənistan tərəfinin davam gətirmək üçün sadəcə olaraq heç bir şansı yoxdur". İndi əsas məsələ Ermənistan rəhbərliyinin də məsələyə eyni prizmadan yanaşmasını təmin etməkdir.

Ekspertlər vurğulayır ki, hazırda Ermənistan daxilində davam edən ziddiyyətlər fonunda İrəvanın hansısa konstruktiv addım atmasını gözləməyə dəyməz. Bunu politoloq Sergey Markov da təsdiq edir. Onun sözlərinə görə, baş nazir Nikol Paşinyan Qarabağda sülh istəyir, lakin daxili siyasətdə vəziyyət ona bu istiqamətdə konkret addımlar atmağa imkan vermir. Markov vurğulayır ki, Paşinyan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Azərbaycanla razılaşmağa qorxur: "Çünki hesab edir ki, ərazilərin qaytarılması ölkədə ona qarşı sui-qəsd və çevrilişlə nəticələnəcək". Markov hesab edir ki, bu mənada, Nikol Paşinyanın adından saxta olduğu iddia edilən məktubun indi yayılması da təsadüf deyil. Həmin məktubda Paşinyan NATO-nun baş katibi Yens Stoltenbergə müraciət edərək, alyansla sıx əməkdaşlıq etməyə hazır olduğunu, ancaq Qarabağ münaqişəsinin bunu əngəllədiyini vurğulayıb. Bundan başqa, məktubda Nikol Paşinyan işğal altında olan Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən Ermənistan qoşununu çıxaracağına boyun olub. Düzdür, Ermənistan rəsmiləri bunu təkzib edir. Lakin ekspertlər belə bir məktubun indiki vaxtda meydana çıxmasını da təsadüf saymır. Hətta Rusiyanın "Komsomolskaya Pravda" qəzeti yazır ki, bu məktub həqiqi olsaydı, hökmən ilin sensasiyası sayılardı, özü də təkcə MDB məkanında deyil: "Çünki orada guya Ermənistan baş naziri NATO ilə yaxınlaşmaq naminə qoşunları yaxın bir ilə Dağlıq Qarabağdan çıxaracağını, əraziləri Azərbaycanın nəzarətinə qaytaracağını vəd edir. Həmin saxta məktubun əslində bəzi Rusiya dairələri tərəfindən Vaşinqton danışıqlarının ardınca Paşinyana qarşı təşkil edilmiş qara piarın tərkib hissəsi olduğu dərhal aydın idi. Məktubu analiz edən ekspertlər əmindir ki, həmin saxta məktubun "ayaqları" ölkə hüdudlarından kənardadır. Heç kimə sirr deyil ki, bu ABŞ-dır. Rusiyanı düşmən dövlətlərlə əhatəyə almaq konsepsiyasını həyata keçirən Vaşinqton ancaq Belarusla bağlı arzu etdiyi nəticəni ala bilməyib. Rusiyanın qərb sərhədlərindəki qalan ölkələr - Polşa, Baltik ölkələri, indi isə budur, Ukrayna... Və hələlik Qara dənizdən Xəzərə qədər məkanda öz istəyinə nail ola bilmir. Amerikalılar Gürcüstanla bağlı bəzi uğurlar əldə edə bilib. Ermənistan və Azərbaycanla bağlı isə alınmır. İlk növbədə Dağlıq Qarabağ münaqişəsinə görə. Nə qədər ki, bu münaqişə nizamlanmayıb, bir tərəfin müsbət qəbul etdiyi hər nəsə dərhal digər tərəfin kəskin mənfi reaksiyasına səbəb olacaq. Ona görə də Vaşinqton üçün İrəvanla Bakı arasında indiki danışıqlar formatı çıxılmaz dalandır. Amerikalılar başqa variant təklif edir - "sülh əvəzində ərazilər". Sürətli, ucuz, qəti. Əlbəttə, kimsə bu işdə uduzmalı olacaq. Amma başlıca məhək daşı yolun üstündən götürüləcək".

Qəzet yazır ki, Paşinyanın iqtidara gəlməsində ABŞ-ın rolu danılmazdır. İndi belə bir məktubu hazırlamaqla ABŞ bir çox məqsədlər güdür. Əvvəla, diqqət ona yönəldilir ki, Paşinyana daxildə mane olan qüvvələr aradan qaldırılsa, bu, Qarabağ münaqişəsinin həllinə imkan verəcək. İkinci bir tərəfdən bununla ona zəmin yaradılır ki, Qarabağ məsələsinin həlli üçün beynəlxalq ictimaiyyətin Ermənistanda müəyyən qüvvələri ciddi təzyiq altında saxlaması olduqca mühümdür. "Komsomolskaya Pravda" hesab edir ki, amerikalılar Ermənistanda ona daha loyal, münaqişənin nizamlanması məsələsində "yola gələn" rəhbərlik görmək istəyir.

Ekspertlər burada diqqəti həm də ona yönəldir ki, yayılan məktub saxta olsa belə, bir sıra məsələlərin üzərinə işıq salıb. Bütün dünyaya bir daha məlum oldu ki, Ermənistanın silahlı qüvvələri Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsi və 7 rayonunda yerləşdirilib. Başqa sözlə, Ermənistan işğalçı dövlətdir. Bu dövlətin Qərbdəki bir sıra qurumlara, o cümlədən NATO-ya inteqrasiya olunmasında ciddi problemlər var. Bu maneələrin başında isə Ermənistan qoşunlarının Azərbaycan torpaqlarında yerləşdirilməsi gəlir.

Burada onu da xatırlatmaq lazım gəlir ki, NATO rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəklədiyini bildirərək, alyansın Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu dəfələrlə diqqətə çatdırıb. NATO-nun siyasi-hərbi blok olduğunu və münaqişənin həllinə maraq göstərdiyini nəzərə alsaq, alyansın qoşununun bufer zonada yerləşdirilməsinin mümkünlüyünü də ehtimal etmək olar. Saxta sayılan məktubda bu da vurğulanır. Belə çıxır ki, Ermənistanda da bunu istəyənlər var. NATO-nun sülhməramlıları yerləşdirilərsə, o zaman Rusiya hərbçilərinin Qarabağda dislokasiya olunması ikinci plana keçir. Görünür, Ermənistanda da münaqişənin həllində Rusiyanın iştirakını istəməyənlər az deyil. O zaman Ermənistanın indiki hakimiyyətinin Moskva ilə münasibətlərində "dostluq", "qardaşlıq", "strateji müttəfiqlik" kimi ifadələr, xoşməramlılıq barədə verilən bəyanatlar saxtadır. Cəmiyyət Ermənistan qoşunlarının işğal altında olan Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən çıxarılmasını istəyir. Əslində, NATO-ya müraciətlə bu prosesə mane olanın da təsviri verilib. Bu məktub həm də qonşularla daim münaqişə vəziyyətinə salınan, qonşularda özünə ancaq düşmən axtaran, məzlum obrazı yaradılan, yoxsul vəziyyətdə olan, münaqişədən, qaçqınlar problemindən bezən, başqa dövlətlərin maraqlarının ifaçısı rolunda olmaqdan yorulan Ermənistan ictimaiyyətinin sifarişi kimi qəbul edilə bilər. Qeyd edilənlər fonunda ehtimal etmək olar ki, məktubun yayılmasında Ermənistan hakimiyyəti də maraqlı olub. Onu da ehtimal etmək olar ki, rəsmi İrəvan bununla ölkə cəmiyyətinin, dost və düşmənlərin münasibətini öyrənmək istəyib. Beləliklə, qeyd edilənlərdən bu qənaətə gəlmək mümkündür ki, indiki vaxtda beynəlxalq ictimaiyyət, o cümlədən NATO qəti hərəkətə keçib Ermənistana təsir göstərsə, İrəvan Qarabağ münaqişəsinin həlli istiqamətində əməli addımlar ata bilər. Paşinyanın adından yayılan məlum məktub da bu istiqamətdə dünya ictimaiyyətinə mesaj sayıla bilər. Azərbaycan da, yuxarıda qeyd olunduğu kimi, dünya ictimaiyyətinin artıq qətiyyətli addımlar atmasını istəyir. Əks təqdirdə Qarabağ münaqişəsinin hərbi həlli qaçılmaz sayılır və bu da regionda maraqlı qüvvələr üçün böyük prpoblemlərə yol aça bilər.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# "İran bir ildən də tez atom silahı əldə edəcək" - Bir il Azərbaycan üçün də bu cəhətdən təsirli ola bilər...

## *Nəzakət Məmmədova: "Rusiya isə bu sahədə İrana nüvə materialları və texnologiyaları göndərə biləcək ən yaxın və etibarlı müttəfiqdir"*

**İranın ABŞ və Avropa Birliyinə verdiyi vaxt başa çatır. Mayın 8-də Tehran xəbərdarlıq etmişdi ki, əgər 60 gün ərzində ona qarşı qoyulan sanksiyalar ləğv olunmasa, nüvə anlaşmasından çıxaraq, uranın zənginləşdirilməsini davam etdirəcək. Yada salaq ki, İran ilə "Altılıq ölkələri" arasındakı nüvə anlaşması 2015-ci ildə imzalanıb. Müqaviləyə görə, İran özünün nüvə proqramından imtina edir, uranın zənginləşdirilməsini dayandırır, 300 kq-dan artıq uran ehtiyatlarını isə satmağa razılaşırdı.**

Əvəzində ona qarşı qoyulan bütün iqtisadi və ticari sanksiyalar aradan qaldırılırdı. Amma Tramp hakimiyyətə gələndən sonra, 2018-ci ilin mayında İrana qarşı sanksiyaları yenidən bərpa etdi.

Ötən ayın 3-də İran Prezidenti Həsən Ruhani bəyan etdi ki, qoyulan müddətə qədər sanksiyalar ləğv olunmasa, Arakda yerləşən nüvə reaktorunun işi bərpa olunacaq və uranın 3,67%-dən yuxarı saflaşdırılmasına başlanacaq. Əksər ekspertlər hesab edir ki, İran bu templə işə başlasa, onun mövcud resursları ilə cəmi bir il kifayətdir ki, nüvə silahı hazır vəziyyətə gəlsin. Aydındır ki, İranın nüvə silahını əldə etməsinə dünya birliyi maksimum mane olmağa çalışacaq. Azərbaycan həmin ölkə ilə qonşuluqda yerləşir. Bu bir il ərzində hansı proseslər baş verəcək və onların bizə nə kimi təsiri ola bilər?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, İranda uranın zənginləşdirilməsi və nüvə silahı hazırlamağa cəhd ötən ilin 50-ci illərindən, şah rejimi dövründən başlayıb, lakin bu günədək İranın nüvə silahına malik olmasına dair rəsmi məlumat yoxdur: "Hər halda, İranın nüvə silahı ətrafında qalmaqal yaranandan bəri Beynəlxalq Atom Enerjisi Agentliyi vaxtaşırı İranın nüvə proqramına dair hesabat dərc edib. Hesabatlarda İran nüvə silahı yaratmağa yaxın olsa da, nüvə silahının olması barədə hər hansı bir qeyd yoxdur. Lakin burada Rusiya amilini istisna etmək olmaz. Rusiya-İran yaxınlaşması hələ 2000-ci ilin payızında Moskvanın islam respublikasına silah satışı və texnoloji əməkdaşlığı genişləndirmək haqda bəyanatından sonra beynəlxalq ictimaiyyətin diqqətini özünə cəlb etmişdi. Bu qərar İrana hərbi avadanlıq satmamaq barədə 1995-ci il Qor-Çernomırdin paktına son qoydu. İranın öz silahlı qüvvələrini yenidən bərpa etmək planları onun Rusiya ilə bu sahədə yaxınlaşmasına səbəb oldu. XXI əsrin ilk onilliyində regionda nüfuz uğrunda intensivləşən beynəlxalq rəqabət bəzi fikir ayrılıqlarına baxmayaraq, ümumi geostrateji maraqlar naminə bu iki ölkəni strateji tərəfdaşa çevirdi. Transmilli faktorların daha da intensivləşdirdiyi bu alyans daha çox siyasi və təhlükəsizlik məsələlərinə əsaslanır. ABŞ-ın Cənubi Qafqaz, Əfqanıstan və İraqa nüfuz etməsi, regionda dini ekstremizmin güclənməsi kimi təhdidlər bu iki ölkənin ümumi mövqedən çıxış etməsini labüd edir. Lakin dini ekstremizmi gücləndirən ölkələrdən biri də elə İran özüdür".




Politoloqun sözlərinə görə, ABŞ nüvə sazişindən çıxdıqdan sonra İngiltərə və Avropa Birliyi ölkələrinin yardımına möhtac qalan İran müqavimət göstərib nüvə silahı hazırlamaqda israr etməklə regional və beynəlxalq mövqelərini gücləndirə bilməz: "Üstəlik, dediyimiz kimi, Ermənistan istiqamətindən ABŞ tərəfindən sıxışdırılmaq təhlükəsi ilə üzləşən İran Xəzər qonşuları ilə münasibətləri kəskinləşdirməklə özünü təcrid edə bilər.

Yaxın Şərqdə ABŞ, İsrail, Səudiyyə Ərəbistanı tərəfindən sıxışdırılan, regional ambisiyaları üçün hərbi büdcəsinə milyardlarla dollar ayıran İran sosial problemlər zəminində başlayıb xalqların azadlıq mübarizəsinədək gedib çıxa bilən daxili iğtişaşlardan narahat olaraq, nüvə silahı hazırlamaq məsələsində güzəştcil mövqe tuta bilər.

İran və Rusiya arasında geosiyasi nüfuz sferası arasındakı böyük fərqlər potensial maraqlar münaqişəsinə təsirsiz ötüşmür. Rusiya regional məsələlərə öz transregional və qlobal nəzər nöqtəsindən baxdığı halda, İran onları öz regional maraqları baxımından nəzərdən keçirir. İrana qarşı beynəlxalq silah embarqosu tətbiq ediləndən sonra Rusiya bu ölkənin əsas silah əldəetmə mənbəyinə çevrilib. İranın öz hərbi qüdrətini artırmaq cəhdləri həm onun təhlükəsizliyinə qarşı mövcud real təhlükələrin olmasından, həm də bu ölkənin regionda böyük dövlətə çevrilmə ambisiyalarından qaynaqlanır. İranın İslam dünyasının liderinə çevrilmək ambisiyaları onu İran körfəzində hərbi donanma saxlamağa və kütləvi qırğın silahları əldə etməyə sövq edir. Bu məqsədlərinə çatmaq üçün ölkəyə müasir silah və hərbi texnologiyalar idxal olunmalı, xarici silah təchizatçılarından asılılığı azaltmaq üçün yerli hərbi-sənaye kompleksi təkmilləşdirilməlidir".

Nəzakət Məmmədova hesab edir ki, Moskva İrana öz silahlı qüvvələrini modernləşdirməyə, eləcə də nüvə, kimyəvi, bioloji silah proqramlarını, ballistik raket texnologiyasını inkişaf etdirməyə yardım edir: "Rusiya habelə İrana yerli silah istehsalını artırmaq üçün hərbi-sənaye kompleksi yaratmağa kömək etməkdədir. Öz potensialına güvənmə İran İslam İnqilabının əsas şüarlarından biridir. İranın Müdafiə Nazirliyinin əsas missiyalarından biri beynəlxalq təcridolunma şəraitində böyük dövlət statusu əldə etmək istəyən İranın xarici bazarlardan asılılığını azaldaraq daxili hərbi-sənaye kompleksini gücləndirməkdir. Ballistik raket bazaları, nüvə zavodları, kimyəvi və bioloji silah qurğuları da daxil olmaqla, ABŞ və İsrail tərəfindən hərbi obyektlərinə raket hücumundan ehtiyatlanan İran hava hücumundan müdafiə sisteminin təkmilləşdirilməsinə həyati əhəmiyyətli məsələ kimi baxır. Hərbi donanmanın modernləşdirilməsi də İranın prioritet verdiyi məsələlərdəndir. İran hər il Fars körfəzində 40 manevr həyata keçirir. Lakin ölkənin nizami silahlı qüvvələri sırasında hərbi donanma ən az inkişaf edib. "Jane İntelligence Review"nun məlumatına görə, hərbi donanma lazımi təchizatın olmamasından çətinlik çəkir. ABŞ-ın İrana silah satışına beynəlxalq embarqo qoymasına baxmayaraq, Rusiya Tehranı yalnız müdafiə üçün zəruri olan silah növləri ilə təmin etdiyini və bununla da beynəlxalq müqavilələri pozmadığını, lakin nüvə silahının yayılmaması barədə beynəlxalq müqavilələrlə öz üzərinə götürdüyü öhdəliklərə riayət edəcəyini bildirmişdi. Lakin müdafiə məqsədli silahlar asanlıqla hücum vasitəsinə çevrilə bilər. Məsələn, Moskvanın ABŞ-ın milli raketdən müdafiə sistemi yaratmaq planlarından təşvişə düşməsinin səbəbi Amerikanın həm də bu cür sistemə malik olmasından istifadə edərək raket hücumu edə biləcəyindən ehtiyat etməsidir. İran rejiminin nüvə silahı yaratmaq ambisiyaları hələ inqilabdan əvvəl şah rejiminin Almaniyanın köməyilə başladığı proqrama əsaslanır. Bununla belə, İranın öz nüvə proqramını həyata keçirmək üçün zəruri material və avadanlıq əldə etmək cəhdləri beynəlxalq maneələrlə qarşılaşmış və prosesin gedişi yubanıb. Proqram 1995-ci ildə Rusiya ilə 800 milyon dollarlıq Buşəhrdə 1000 meqavatt reaktor tikilməsi barədə kontraktın imzalanmasından sonra canlanıb. Lakin ABŞ-ın təzyiqləri nəticəsində bir müddət proses yenidən təxirə düşsə də, nəhayət, 2003-cü ilin sonlarından etibarən Buşəhrdə işlər yenidən davam etdirilməyə başlanıb.

ABŞ iddia edir ki, enerji resursları ilə zəngin olan İranın əlavə nüvə enerjisinə ehtiyacı yoxdur və reaktordan İranın nüvə silahı proqramı üçün istifadə edilə bilər. Lakin Moskva iddia edir ki, proqram dinc məqsəd daşıyır və Beynəlxalq Atom Enerjisi Agentliyinin nəzarəti altındadır. Vaşinqton İranla nüvə əməkdaşlığı edən Rusiya şirkətlərinə və ya Rusiya hökumətinə qarşı sanksiya tətbiq edə bilər. Hələ 1999-cu ildə bir neçə Rusiya şirkətinə və üç nüvə tədqiqatı institutuna qarşı bu cür tədbir görülüb. Bu yaxınlarda RF Prezidenti V.Putin etiraf edib ki, heç də Rusiyadakı bütün dövlət strukturları və institutları ixracat prosesinə ciddi nəzarəti saxlamaq üçün əllərindən gələni etmirlər. İran 1968-ci il Nüvə silahının yayılmaması haqda müqaviləyə tərəfdar çıxan ölkə olsa da, ABŞ, İsrail və Orta Şərqin bəzi ərəb ölkələrilə düşmənçilik münasibətlərinin olması onu nüvə silahı yaratmaqda israrlı olmağa vadar edir. Rusiya isə bu sahədə İrana nüvə materialları və texnologiyaları göndərə biləcək ən yaxın və etibarlı müttəfiqdir. Bundan başqa, Rusiya mütəxəssisləri İrana kimyəvi və bioloji silahların hazırlanmasında da yardım ediblər. Həmin proqram 80-ci illərin ortalarında İran-İraq müharibəsində İraqın kimyəvi silah istifadə etməsindən sonra xüsusi əhəmiyyət kəsb etməyə başladı. Eyni köməyi raket texnologiyalarının inkişafı haqqında da demək olar. İran bu sahədə həm də Şimali Koreya və Çinin də yardımlarından bəhrələnib. Hazırda İran qısa və ortamənzilli raketlər istehsal etməkdədir. Tehran bu ballistik raketlərdən öz siyasi statusunu möhkəmləndirmək və təhdid vasitəsi kimi istifadə etmək niyyətindədir".

***Məhəmmədəli QƏRİBLİ***

# BMT-nin Qeyri-maddi mədəni irs və Dünya irsi siyahısındakı Azərbaycan inciləri...

*Azərbaycanın UNESCO-nun Ümumdünya irs siyahısına 5, Qeyri-maddi mədəni irs siyahısına isə 13 nümunəsi daxildir*



**BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan UNESCO dünyanın maddi və qeyri-maddi irs nümunələrini mühafizə edən, qorunmasını həyata keçirən bir qurum kimi fəaliyyətdədir. Məlum olduğu kimi, Bakıda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası davam edir və sessiyada dünyanın müxtəlif ölkələrinə aid olan maddi və qeyri-maddi irs nümunələri UNESCO-ya daxil edilib.**

***Aida İsmayılova:*** *"Mehriban xanımın mədəni irsimizə, tariximizə diqqət və qayğısı nəticəsində bu gün UNESCO-nun müvafiq siyahılarında Azərbaycanın bir sıra maddi və qeyri-maddi irs nümunələri yer alıb"*

Müsbət haldır ki, Bakı sessiyasında UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilən obyektlər sırasında Şəki Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi də var. Şəki Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzinin UNESCO-ya daxil edilməsi üçün uzun müddətdir Mədəniyyət Nazirliyi və ölkəmizin UNESCO-dakı nümayəndəliyi məqsədyönlü işlər aparıblar. Heç şübhəsiz ki, Şəki Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzinin və ondan əvvəlki maddi və qeyri-maddi irs nümunələrimizin UNESCO-ya daxil edilməsində Heydər Əliyev Fondunun prezidenti, ölkəmizin Birinci vitse-prezidenti, UNESCO-nun ölkəmizdəki xoşməramlı səfiri Mehriban Əliyevanın göstərdiyi səylərin böyük rolu var.

Azərbaycan - UNESCO əməkdaşlığının 27 yaşı var və bu 27 il ərzində qurumla səmərəli əməkdaşlığımız mövcuddur.

Ekspertlər qeyd edirlər ki, UNESCO ilə Azərbaycan Respublikası arasındakı əlaqələr 2004-cü ildə Mehriban Əliyeva UNESCO-nun xoşməramlı səfiri seçiləndən sonra daha sürətlə inkişaf etməyə başlayıb. Ekspertlər qeyd edirlər ki, M.Əliyevanın səyləri nəticəsində Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələri UNESCO-nun müvafiq siyahılarında yer alıb.

Azərbaycanda UNESCO-nun Ümumdünya irsi obyektlərinin siyahısına Şirvanşahlar Sarayı və Qız qalası ilə birlikdə İçərişəhər, Qobustan Qaya Sənəti Mədəni Landşaftı, Şəki Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi daxildir. Azərbaycan Respublikası 1992-ci ildə UNESCO-ya üzv qəbul edilib və 1996-cı ildə isə UNESCO və Azərbaycan arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Bakı şəhərinin tarixi mərkəzi olan İçərişəhər memarlıq kompleksi 2000-ci ildə, Qobustan dövlət tarixi-bədii qoruğu isə 2007-ci ildə Ümumdünya irsi siyahısına salınıb. Bu gün UNESCO-nun Ümumdünya irs siyahısında Azərbaycana aid 5 maddi mədəni irs nümunəsi mövcuddur.

Bundan başqa, UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına salınan nümunələrimiz də var. Bildiyimiz kimi, Azərbaycandan UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına 13 qeyri-maddi mədəni irs nümunəsi daxildir.

İlk nümunə olan Azərbaycan muğamı 2008-ci ildə bu siyahıya daxil edilib. Bundan başqa, 2009-cu ildə Azərbaycan aşıq sənəti, həmin ildə Novruz bayramı, 2010-cu ildə Azərbaycan xalça toxuculuğu (xalçaçılıq), 2012-ci ildə Azərbaycan tar ifaçılıq sənəti və onun hazırlanma ustalığı, 2014-cü ildə qadın baş örtüyü kəlağayının düzəldilməsi və geyinilməsi, 2015-ci ildə Lahıc misgərlik sənəti, 2016-cı ildə lavaş, 2017-ci ildə dolma hazırlama və paylaşma ənənəsi, kamança (2017), 2018-ci ildə Dədə Qorqud dastan mədəniyyəti, nağılları və musiqisi UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Bundan başqa, UNESCO-nun Təcili qorunma ehtiyacı olan qeyri-maddi irsi siyahısına da düşən örnəklərimiz var. Belə ki, 2017-ci ildə Qarabağ atı ilə oynanılan çovqan atüstü oyunu, 2018-ci ildə Naxçıvanın ənənəvi qrup rəqsləri - yallı, köçəri, tənzərə bu siyahıda yer alıb.

UNESCO-nun ehtiyatdakı nominasiyalarına isə balabanın hazırlanma və ifa edilmə ustalığı, ifaçılıq sənətləri, ənənəvi sənətkarlıq, 2012-ci ildə Nicin mədəni mühiti, Qırmızı qəsəbənin mədəni mühiti daxil edilib.

Maddi-mədəni irs üzrə mütəxəssis, tədqiqatçı Aida İsmayılova bizimlə söhbətində bildirdi ki, Bakı sessiyasında Şəki Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzinin UNESCO-nun Ümumdünya irs siyahısına salınacağı gözlənilən idi. Onun sözlərinə görə, Azərbaycanın maddi və qeyri-maddi irs nümunələrinin UNESCO-ya daxil edilməsində Mehriban Əliyevanın böyük əməyi var. O, həmçinin, vurğuladı ki, mədəni irsin qorunması, ona sahib çıxmaq məsələləri təxminən 10 il bundan əvvəl dünya səviyyəsində bu qədər aktual olmayıb. "Bu gün Azərbaycan və UNESCO arasında çox sıx əlaqələr mövcuddur. Şübhəsiz ki, bu əlaqələrin gücləndirilməsində və möhkəmlənməsində ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük rolu var. Mədəni irsimizin qorunmasında onun əvəzsiz xidmətləri var. Mehriban xanımın mədəni irsimizə, tariximizə diqqət və qayğısı nəticəsində bu gün UNESCO-nun müvafiq siyahılarında Azərbaycanın bir sıra maddi və qeyri-maddi irs nümunələri yer alıb. Məlum olduğu kimi, ölkəmiz təşkilatın "Qeyri-maddi mədəni irsin qorunmasına dair" Konvensiyasına qoşulub. Bakı sessiyasında dünyanın bir sıra maddi və qeyri-maddi irs nümunələri UNESCO-nun müvafiq siyahısına salınıb. UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında Şəki Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzinin UNESCO-ya daxil edilməsində Mehriban Əliyevanın misilsiz xidmətləri var".

Mütəxəssis qeyd etdi ki, Mədəniyyət Nazirliyində "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri" də yaradılıb. O vurğuladı ki, mədəniyyət nümunələrini dövlət qeydiyyatına almaq onların təbliğini aparmaq, ermənilər tərəfindən mənimsənilməsinin qarşısını almaq üçün lazımi informativ bazanı formalaşdırmaq ehtiyacından irəli gəlib.

*İradə SARIYEVA*

# Naxçıvan türbələri də Dünya İrs Siyahısına daxil edilə bilər

**Ölkəmizdə beynəlxalq miqyasda tanınmasını gözləyən hələ çox mədəni irs obyektləri (Atəşgah, Naxçıvandakı türbələr, Xəzər sahilindəki tarixi istehkamlar və s.) var. Azərbaycan dövləti tərəfindən həyata keçirilən ardıcıl iş sayəsində ölkəmizin mədəni irs nümunələrinin UNESKO siyahısında sayı bundan sonra da artacaq.**

Mədəniyyət Nazirliyindən "Trend"ə verilən məlumata görə, UNESKO siyahısına daxil edilmək dünya mədəni və təbiət irsinin saxlanılması üçün beynəlxalq təsisatlardan, ilk növbədə Ümumdünya İrsi Fondundan maliyyə vəsaitlərinin cəlb edilməsində prioritetliyi təmin edir.

Qeyd edək ki, iyulun 7-də UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında Azərbaycanın qədim irsi, zəngin mədəniyyəti, həmçinin beynəlxalq miqyasda nüfuzu üçün müstəsna önəm kəsb edən qərar qəbul olunub, Şəki şəhərinin tarixi mərkəzi Şəki Xan sarayı ilə birlikdə Ümumdünya İrs Siyahısına salınıb. 2000-ci ildə Qız qalası və Şirvanşahlar sarayı ilə birlikdə İçərişəhərin, 2007-ci ildə Qobustan qayaüstü rəsmlərinin UNESKO siyahısına daxil edilməsindən sonra bu, Azərbaycanın dünya xəzinəsində yer alan üçüncü mədəni irs məkanıdır.

Şəki şəhərinin tarixi mərkəzinin və Şəki Xan sarayının Ümumdünya İrs Siyahısına salınması Azərbaycanın UNESKO-da ardıcıl fəaliyyətinin, eləcə də ölkə rəhbərliyinin bu məsələyə xüsusi diqqətinin nəticəsidir.

Bu uğur Azərbaycanın illərdən bəri - həm ölkəmizin daxilində, həm də onun hüdudlarından kənarda - dünya irsi obyektlərinin qorunması ilə bağlı həyata keçirdiyi dövlət siyasətinin təbii davamıdır.

Xüsusi məmnunluq doğurur ki, Şəki ilə bağlı tarixi qərar Ümumdünya İrs Komitəsinin ölkəmizdə keçirilən sessiyasında qəbul olunub. UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsi faktının özü Azərbaycanın dünya irsi obyektlərinin qorunması məsələsində xidmətlərinin beynəlxalq miqyasda etirafı və yüksək qiymətləndirilməsinin sübutudur.

Bu hadisə Azərbaycanın dünya mədəni-turistik xəritəsində beynəlxalq mövqelərini daha da möhkəmləndirir.

# Qızılgül yağı da Azərbaycana valyuta axınının mühüm mənbələrindən birinə çevrilir...

**Son illər ölkəmizin müxtəlif regionlarında, xüsusilə Zaqatala və Balakəndə qızılgül əkinləri sahələri artmaqdadır. Adıçəkilən rayonların qızılgül əkini üçün seçilməsi təsadüfi deyil. Hələ Sovet illərində Zaqatalada qızılgüldən ətirlər istehsal olunub. Üstəlik, torpaq-iqlim şəraiti də sözügedən bölgələrdə əkinə zəmin yaradır.**



## *Fuad İbrahimli: "Qızılgül yağının ixracını genişləndirmək üçün qeyd olunan sektoru daha da inkişaf etdirmək lazımdır"*

O illərdə Azərbaycanda qızılgüldən əsasən ətriyyat hazırlanıb. Qızılgül yağının istehsalına isə çox da fikir verilməyib. Halbuki, indi dünyada qızılgül yağı tələbatın olduğu maddələrdən sayılır.

Məlumat üçün bildirək ki, gül yağları əsasən distillə yolu ilə alınır. Bunlardan ən geniş yayılanı isə qızılgül, lavanda, qərənfil və sitrus yağlarıdır. Dünya üzrə 10 əsas efir yağının illik istehsalı həcmi 100 min tondan çoxdur. Bunların içində ən bahalısı qızılgül yağıdır. Onun illik istehsal həcmi 5 tonu keçmir. Efir yağlarının istehsalı üzrə lider ölkələr Fransa, Bolqarıstan, Türkiyə, İran, Çili və İndoneziyadır.

Tarixi mənbələrə əsasən, qızılgül yağını ilk dəfə qədim romalılar çəkib. Bundan sonra ərəblər bu işi mənimsəyiblər. Orta əsrlərdə isə tarixi Azərbaycan ərazilərində bu sahə sanballı gəlir mənbəyinə çevrilib.

Müasir dövrdə qızılgül yağı əsasən Dəməşq qızılgülündən çəkilir.

Azərbaycanda da qızılgül istehsalı yenidən təşəkkül tapır. Vaxtilə Zaqatala rayonunun timsalında əminliklə söyləmək olar ki, Azərbaycan bu sahədə öncüllər sırasında ola bilər.

Qeyd edək ki, qızılgül yağının 1 litri 7 min avrodur. Bu səbəbdən də ölkəmizdə də gülçülük sahəsinə və güldən hazırlanan efir yağına xüsusi diqqət göstərilir.

Son illər dövlət dəstəyilə Zaqatalada yenidən inkişaf etdirilən gül yağı istehsalında da bu il bir qədər də artım gözlənir. Məlumatlara görə, artıq 125 hektar sahədə qızılgül yığımına başlanıb. Bu il 125 hektar ərazidən 350 tona qədər gül ləçəyi yığılması proqnozlaşdırılır. Bundan isə 130 kq yağ emal olunacaq. Gələcəkdə bu plantasiyalardan ildə 500 ton gül ləçəyinin toplanması planlaşdırılır. Qeyd edək ki, gül ləçəyindən yağ almaq üçün bu rayondakı zavod da yenidən qurulub. Burada hər 4 ton güldən bir kilo yağ əldə olunur. Emal olunan gül yağı farmokoloji, qida və kosmetoloji sənayedə istifadə olunması üçün xarici bazarlara çıxarılır.

Artıq ölkəmizdə istehsal olunan qızılgül yağı xaricə ixrac edilir. "Azərrose" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaydığı məlumatda qeyd olunur ki, şirkət xaricə qızılgül yağı ixrac etmək üçün danışıqlar aparır: "Artıq danışıqlar yekunlaşmaq üzrədir. Çox güman ki, yaxın vaxtlarda danışıqlar yekunlaşacaq və yağ ixracına başlayacağıq. Hazırda Fransa, İsveçrə, Almaniya və Bavariyaya qızılgül yağı və lavanda yağı ixrac etmək üçün danışıqlar aparılır. Həmin yağlar "Made in Azerbaijan" brendi altında, "Roseoil" və "Lavandoil" adı ilə ixrac ediləcək".

*"Made in Azerbaijan" brendi adı altında istehsal olunacaq qızılgül yağı rəqabətyönümlü olmalıdır ki, xarici bazarda özünə yer tuta bilsin"*

**Qızılgül yağının ixracının artırılmasının əhəmiyyəti barəsində danışan iqtisadçı-ekspert Fuad İbrahimli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, istehsal olunan hər bir məhsul rəqabətqabiliyyətli olmalıdır.** Nəzərə almaq lazımdır ki, gülçülük elə bir sahədir ki, bu sahəyə tələbat var. Tələbat olmaqla yanaşı, xarici bazarda bu sahə üzrə öz sözlərini demiş ölkələr var: "Məlumdur ki, qızılgül yağı olduqca bahalı məhsuldur və yağın ixracı ölkəyə xeyli valyuta gətirər. Onu da nəzərə almaq lazımdır ki, hər ölkədə qızılgül yağı istehsal olunmur. "Made in Azerbaijan" brendi adı altında istehsal olunacaq qızılgül yağı rəqabətyönümlü olmalıdır. Bazar iqtisadiyyatı prinsiplərinə əsasən, xarici bazara çıxarılacaq məhsul qonşu ölkələrlə müqayisədə ucuz olmalıdır".

Həmsöhbətimiz onu da vurğuladı ki, qızılgül yağının ixracını genişləndirmək üçün qeyd olunan sektoru daha da inkişaf etdirmək lazımdır: "Bəllidir ki, qızılgül yağına tək parfumeriyada deyil, eyni zamanda, qida və farmokoloji sahələrdə tələbat var. Vaxtilə Azərbaycanda qızılgül yağı daha çox istehsal olunurdu.

Eyni ənənənin yenidən bərpa olunması gözlənir. Adıçəkilən məhsul rəqabətqabiliyyətli olarsa, xarici bazarda özünə yer tutar".

***Günel CƏLİLOVA***

# Reklam qanununda böyük boşluq - rəqəmsal resurslarda reklamı tənzimləmək mümkünsüzdür...

**Müasir dövrdə bir çox bazarda rəqabətin güclənməsi, o cümlədən, müxtəlif istehsal sahələrində fəaliyyət göstərən istehsalçı müəssisələrin bir-birilə rəqabət aparmaları firmaların bütün mümkün vasitələrdən istifadə etməklə öz məhsullarının satışını aktivləşdirməyə çalışmalarına, başqa sözlə desək, məhsulların bazara yeridilməsinə cəhd göstərmələrinə səbəb olur.**



## *Oqtay Əliyev: "Reklam haqqında" Qanunda elektron media məsələsinə toxunulmayıb, bu sahəyə nəzarət etmək lazımdır"*

Bu zaman müəssisələr satışın stimullaşdırılmasının müxtəlif vasitələrindən istifadə edirlər.

Satışın stimullaşdırılmasının ən geniş yayılmış və effektiv təsir göstərən marketinq vasitələrindən biri reklam fəaliyyətidir. Reklam fəaliyyəti bu və ya digər məhsulun mövcudluğu haqda, habelə onun xarakteristikası haqda alıcılara informasiya vermək, onları məlumatlandırmaq funksiyasını yerinə yetirir. Lakin qeyd etmək lazımdır ki, adətən firmalar üçün reklamın informasiya funksiyası ikinci dərəcəli əhəmiyyət daşıyır. Reklam vasitəsilə məhsulun üstünlükləri- ni və onun faydalılığını alıcılara inandırmaq və bununla da məhsulu bazara yeritmək firmalar üçün daha vacib əhəmiyyət daşıyır. Reklam sahəsinin inkişaf etdirilməsi üçün bir sıra layihələr həyata keçirilib, müəyyən işlər görülüb. Ancaq buna baxmayaraq, hələ də reklam sahəsində müəyyən boşluqlar var.

Məlumatlara görə, "Reklam haqqında" Qanunla "digital" (rəqəmsal) reklamlara nəzarət edilmir. Həm şirkətlər, həm də şəxslər qanunu kobud şəkildə pozurlar. Danılmaz faktdır ki, insanlar bu gün vaxtlarının əhəmiyyətli hissəsini mobil telefonlarda, kompyuterlərdə, planşetlərdə keçirirlər. Xəbərləri internetdən oxuyur, video verilişlərə internetdən baxır, oyunları internetdən oynayır, ailəsi və dostları ilə söhbətləri internetdən edir, getdikləri restoranları internetdən seçir, səyahətlərini belə internetdən planlayırlar. Bir sözlə, internet və internet reklamları artıq insanlarımızın həyatının dəyişilməz bir parçası olub. Bir sıra Avropa ölkələrindəki kimi, internetdən verilən reklamları qanunvericilik çərçivəsinə salmasaq, zərərli və ya saxta məhsulların reklamı, istehlakçıların aldadılması, ictimai təhlükəsizlik, insan alveri, kölgə iqtisadiyyatı kimi əhəmiyyətli mövzularda idarətməni itirə bilərik. Xüsusən 18-25 yaş aralığında gənclərin aktiv sosial şəbəkələrdə vaxt keçirdiyini nəzərə alsaq, onların qarşısına çıxan məzmunun həm daxilindəki qanunla qadağan olunan gizli reklamlar və ya açıq reklamlar, həm də sosial şəbəkə platformaları üzərindən göstərilən sponsor reklamlarının birbaşa şüurlara təsirləri qaçılmaz olacaq.

*"Bəzi məşhurlar sosial şəbəkədə reklam xarakterli məhsullar paylaşaraq gizli reklama əl atırlar"*

**Reklamçılar İttifaqı idarə heyətinin üzvü, reklam sahəsi üzrə mütəxəssis Oqtay Əliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, "Reklam haqqında" Qanun ilk dəfə qəbul olunandan bəri ona bir neçə dəfə müəyyən dəyişikliklər və yeniliklər edilib:** "Əsasən reklamın yerləşdirilməsi, onun dəyəri və qiyməti, eyni zamanda, reklam materiallarının doğma ana dilində olması həmin qanunda qeyd olunub. Bu kimi məsələlərə əvvəllər Bakı Şəhər Reklam və İnformasiya İdarəsi nəzarət edirdi. Təxminən iki il öncə Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Dövlət Reklam Agentliyi (ADRA) yaradıldı. Agentliyin nizamnaməsi yenidən quruldu. Reklama icazə verilmə məsələsinə yeni yaranan agentlik nəzarət edir".

Həmsöhbətimiz onu da vurğuladı ki, "Reklam haqqında" Qanunda elektron media məsələsinə toxunulmayıb.

O.Əliyevin sözlərinə görə, bəzi məşhur şəxslər şəxsi sosial şəbəkələrində reklam xarakterli məhsullar paylaşırlar: "Sponsorlardan ödəniş alıb, məhsulları, şirkətləri tərifləyirlər. Təəssüf ki, həmin şəxslər paylaşdıqlarının reklam olduğunu öz izləyicilərinə bildirmirlər. Kütləni inandırmağa çalışmaq üçün gizli reklama əl atırlar və təəssüflər olsun ki, sponsorlar da bunu onlardan tələb edirlər. Qeyd edim ki, qanunvericilik açıq-aşkar istehlakçıya reklam daşıyıcılarında gizli reklam göstərməyi qadağan edir".

***Günel CƏLİLOVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az



# İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

**XXI əsrin əvvəllərindən informasiya-kommunikasiya texnologiyaları cəmiyyətin və iqtisadiyyatın inkişafına təsir göstərən əsas amillərdən biridir. Onun əhatə dairəsinə dövlət orqanları, sosial-iqtisadi, elm və təhsil, mədəniyyət sahələri aiddir, bütövlükdə, informasiya texnologiyaları insanların həyat tərzinə çevrilib. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr İKT-nin yaratdığı üstünlüklərdən yüksək səviyyədə faydalanır, iqtisadi sahədə böyük uğurlara imza atırlar.**

İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqinin dərəcəsi ölkənin elmi, iqtisadi potensialının, dövlət idarəçiliyinin səviyyəsinin göstəricilərindəndir. Dünya bazarında elektron biznesin rolunun artdığı müşahidə olunur və indi ölkələrin iqtisadi rəqabəti aparmaq qabiliyyəti onların İKT-dən effektiv istifadəsindən asılıdır. Son illərdə bu sahənin inkişaf etdirilməsi üçün Azərbaycanda addımlar atılmış, İKT istiqaməti dövlət siyasətinin tərkib hissəsinə çevrilib. Ölkə Prezidentinin təşəbbüsü nəticəsində İKT sahəsində səmərəli addımlar atılıb.

İKT-nin, o cümlədən, internet iqtisadiyyatının inkişaf etdirilməsi bütün dünyada olduğu kimi, Azərbaycanda da ənənəvi iqtisadi sahələrin inkişafında mühüm rol oynadığı şübhəsizdir. Belə ki, internet iqtisadiyyatı yeni istifadə və iştirak mühitlərinin yaranmasına, məhsuldarlığın artırılmasına, rəqiblər üzərində strateji üstünlüyün əldə olunmasına, tərəfdaşlarla münasibətlərin möhkəmləndirilməsinə, informasiya resurslarından optimal istifadəyə və bütövlükdə, cəmiyyətin rifahının yaxşılaşdırılmasına şərait yaradır. Bütün bu məqsədlərə çatmaq və nəzərdə tutulan işləri sistemli şəkildə həyata keçirmək üçün "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" hazırlanıb.

Ölkədə rəqabətədavamlı və yüksək ixrac potensiallı, innovativ İKT sənayesinin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Prezidentinin müvafiq fərmanları ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu və Yüksək Texnologiyalar Parkı yaradılıb. Bu yeni qurumlar ölkə iqtisadiyyatının güclənməsinə, xarici investisiyaların cəlb edilməsinə və İKT məhsullarının istehsalının genişlənməsinə, yeni yaranan şirkətlərin fəaliyyətinin təşkilinə və innovativ təşəbbüslərə maliyyə dəstəyini və təşkilati dəstəyi təmin edir. Yeri gəlmişkən qeyd edək ki, son illərdə İKT sektoru iqtisadiyyatın aparıcı və dinamik inkişaf edən sahəsinə çevrilib.

Dövlət və qeyri-dövlət təşkilatlarının fəaliyyətinin yeni şəraitə asan uyğunlaşması, E-biznes, E-bankçılıq, E-təhsil kimi layihələrin həyata keçirilməsi də daxil olmaqla, informasiya cəmiyyətinə keçidin reallaşdırılması və inkişafını təmin etmək mərhələsindəyik.

Ulu öndər Heydər Əliyevin siyasi təşəbbüsü sayəsində 1994-cu ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması ölkənin yeni sosial-iqtisadi inkişaf modelinin həyata keçirilməsi üçün zəruri əsaslar formalaşdırmaqla yanaşı, müasir rabitə və informasiya texnologiyalarının sürətlə tətbiqində də böyük canlanma yaradıb. Siyasətin əsas məqsədlərinə İKT sahəsində hüquqi bazanın yaradılması, insan faktorunun inkişafı, vətəndaşların məlumat almaq, onu yaymaq və istifadə etmək hüquqlarının əldə edilməsi, elektron hökumətin, elektron biznesin formalaşması, ölkənin iqtisadi, sosial və intellektual imkanlarının təkmilləşdirilməsi, biliklərə əsaslanan, rəqabətə davamlı istehsalın qurulması kimi əsas məsələlər daxildir.

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyaları hər bir ölkənin sosial-iqtisadi həyatına geniş nüfuz edib. Ölkəmizdə də müasir informasiya-kommunikasiya infrastrukturunun yaradılması, rabitə xidmətinin səviyyəsinin yüksəldilməsi prioritet məsələdir. Rabitə və informasiya texnologiyalarının inkişafına mühüm əhəmiyyət verən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də ölkəmizdə informasiya-kommunikasiya texnologiyaları sahəsində məqsədyönlü tədbirlər görülür. Son illər həyata keçirilən dövlət proqramları və zəruri islahatlar nəticəsində ölkəmizin ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası təmin edilmiş, elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb.

2013-cü il Azərbaycanda "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilib, elə həmin il fevralın 8-də Azərbaycanın ilk telekommunikasiya peyki orbitə çıxarılıb.

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrildiyini inkar etmək olmaz. Onun əhatə dairəsi dövlət strukturlarını və vətəndaş cəmiyyəti institutlarını, sosial-iqtisadi sahələri, elm və təhsili, mədəniyyəti, bütövlükdə, insanların həyat tərzini əhatə edib. Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr informasiya-kommunikasiya texnologiyalarının yaratdığı üstünlüklərdən lazımi səviyyədə faydalanır, iqtisadi sahədə böyük uğurlara imza atırlar. İnformasiya cəmiyyətinə istiqamətlənmiş yolun bəşəriyyətin gələcəyinə gedən yol olduğu artıq heç kimdə şübhə doğurmur.

Ancaq İKT-nin inkişafı həm də bir sıra məsələlərə yanaşmada ehtiyatlı olmamızı, onun insan faktoru ilə sintezindən doğan nəticələr barədə ətraflı düşünməmizi, yeri gəldikdə qabaqlayıcı tədbirlər görməyimizi şərtləndirir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Elçin Əlibəylinin sözlərinə görə, müasir İKT bir tərəfdən fərdi etik, digər tərəfdən, onların tətbiqi bacarıqlarının səviyyəsinə görə yüksək tələblər qoyur: "Bir qayda olaraq, bir şəxs bu xüsusiyyətlərin yalnız birinə malikdir, amma böyüməkdə olan nəslin dəyərlərinin formalaşmasına təsir göstərmək üçün hər ikisini mükəmməl icra etməyi bacarmaq lazımdır. Valideynlər, müəllimlər gənc nəslə nisbətən tez-tez İKT-yə üz tutmurlar və çeşidli həyat məsələlərini həll etmək üçün həmişə ondan rahat istifadə edə bilmirlər. XXI əsrdə yeni-yeni İKT-lərin meydana gəlməsi ilə əlaqədar olaraq, bilik ötürülməsi istiqamətində dəyişiklik yaranıb. Artıq biliklər yaşlı nəsildən gənclərə deyil, əksinə ötürülür. Müasir dünyanın yüksək sürətli dəyişmə şəraitində virtual aləm kimi həyat sahələrində öyrətmə rolunu yerinə yetirə bilməyən yaşlı adamların nüfuzunun azalması müşahidə olunur. Artıq virtual aləm evdə olan dünya görmüş babadan min qat artıq informasiya verə bilir.

Eyni zamanda, müasir İKT-nin istifadəsində yüksək səviyyəli bacarıqlara malik olan bir qrup mütəxəssis var. Onlardan bəzilərində qabarıq deviant, assosial meyllər (trollar, heyterlər) açıq əks olunur və məhz onlar yeni nəslin dəyərlərinin formalaşmasına təsir edə biləcəklər. Bu amillərin təsiri fərdin mənəvi-etik səviyyəsinin və psixoloji mədəniyyətinin azalmasına gətirib çıxarır".

Elçin Əlibəyli hesab edir ki, müasir insanın inkişafı üçün göstərilən şərtlər rəqəmsal təcrübəni yaratmağın zəruriliyini şərtləndirir: "Təcrübə həm də İKT-dən istifadə etmək üçün bilik, bacarığından əlavə, onun virtual aləmdə əməl və hərəkətləri üçün doğru istifadə, məsuliyyət motivasiyasını nəzərdə tutur. Yəni rəqəmsal vətəndaş yetişdirmək məsələsi meydana çıxır. Yaşlılar rəqəmsal "immiqrantlar" olduğu halda, internet dövründə doğulan nəsil rəqəmsal "aborigenlər"dir. Rəqəmsal vətəndaşlıq müasir rəqəmsal dünyada formalaşma mərhələsində olan ümumi qəbul edilmiş qaydalar və davranış normaları ilə internet mühitində qarşılıqlı təsirlərin tənzimlənməsini nəzərdə tutur. Təsəvvür edin ki, yüksək texnologiyaya malik bir ölkəyə düşmüsünüz, lakin insanlar arasında münasibətləri tənzimləyən dəqiq qaydalar və normalar yoxdur. Heç bir hüquq-mühafizə orqanı yoxdur, bu, tamamilə özünü təşkil edən bir yerdir. Bu ölkə internet sahəsidir. Onun inkişaf perspektivi gələcək nəsillər üçün qaydaların müəyyən edilməsi, təhlükəsizliyin yaranmasıdır. Bunun üçün İKT-nin tətbiqi prosesində ortaya çıxan imkanlar və risqlərin öyrənilməsi, araşdırılması tələb olunur. İnternet texnologiyalarının düzgün tətbiqi nümunəsi inkişaf məzmununun yaradılması, konstruktiv internet-kommunikasiya bacarıqları və kiber aqressiya təzahürləri ilə işləməyə diqqət etməyi tələb edir.

İnternet ünsiyyətinin xüsusiyyətlərini bilmək və internet məkanında effektiv və münaqişəsiz ünsiyyət üçün real məkanda ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi və sınaqdan keçirilməsi, empatiyanın inkişafı, onun ifadəsinin müəllifə təsirinin proqnozlaşdırılması qabiliyyəti lazımdır. Real və internet mühitində fəaliyyətlərini, onların məsuliyyətini başa düşmək qabiliyyəti üçün refleksin inkişaf etdirilməsi vacibdir. Qeyd etmək lazımdır ki, virtual birliklərdə söylənilənlərin həmsöhbətə emosional təsirinin daha az olmaq ehtimalı var, çünki verbal və paraverbal məlumatların qəbulu və ötürülməsi kanallarına mimika, jestlər, intonasiya və s. daxil deyil. Bu səbəblərdən müəllifdə həmsöhbətin niyyəti haqqında öz təsəvvürü yaranır ki, bu da neqativ emosional təsir vəziyyətinə düşür. Məsələn, hansısa bir ifadəni işlədərkən biz verbal ünsiyyət zamanı mimika və jestlə bunu ironik və məcazi mənada işlətdiyimizi ifadə edə bilirik, internet məkanında bu alətlər işləmədiyindən, hətta adi bir söz qarşı tərəfdə qıcıq yarada bilər".

Bütün bu araşdırmadan sonra bu qənaətə gəlirik ki, İKT-nin inkişafı bizə nə qədər müsbət dividendlər vəd edirsə, bir o qədər də onun doğura biləcəyi mənfi fəsadlardan mühafizə olunmağımızı zəruri edir.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün çap olunub.**

# Həkim səhlənkarlığına görə xəstəyə dəymiş ziyanın əvəzi ödəniləcək - Azərbaycanda yeni...

**Xəbər verildiyi kimi, Azərbaycanda həkim səhlənkarlığı və ehtiyatsızlığı nəticəsində xəstəyə dəymiş zərər ödəniləcək. Bu, Nazirlər Kabinetinin sərəncamı ilə təsdiqlənmiş "Sığorta sektorunun inkişafına dair 2019-2021-ci illər üçün Tədbirlər Planı"nda əksini tapıb.**




## *Adil Qeybulla: "Həkim səhlənkarlığı nəticəsində xəstəyə zərər dəyibsə, həmin zərəri sığorta şirkətləri qarşılamalıdırlar"*

Bununla əlaqədar Maliyyə Bazarlarına Nəzarət Palatası, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Maliyyə Nazirliyinə 2019-2020-ci illər ərzində həkimlərin peşə məsuliyyətinin icbari sığortası növünün yaradılmasına dair qanun layihəsi hazırlamaq və təqdim etmək tapşırılıb. Maliyyə Bazarlarına Nəzarət Palatası, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Maliyyə Nazirliyi qanun qəbul edildikdən sonra, 2020-2021-ci illərdə həkim səhlənkarlığı və ehtiyatsızlığı nəticəsində xəstəyə dəymiş zərərin ödənilməsi mexanizminin tətbiq olunmasını təmin etməlidirlər.

Məlumdur ki, dəfələrlə həkim səhlənkarlığı və ya ehtiyatsızlığı nəticəsində xəstəyə zərər dəyib. Bu kimi halların qarşısını almaq üçün xəstəyə həkim tərəfindən dəymiş ziyan geri ödəniləcək. Ekspertlər bu qərarı müsbət qarşılayırlar.

**Məsələ ilə bağlı fikir bildirən professor, tibbi ekspert Adil Qeybulla bildirdi ki, həkimin səhv diaqnozu nəticəsində xəstənin sağlamlığına ziyan dəyibsə və xəstə vəfat edibsə, həkim ehtiyatsızlıq ucbatından baş verən cinayətə görə hüquqi məsuliyyət daşımalıdır:** "Ölüm halı qeydə alınmayıbsa, qeyri-düzgün diaqnoz nəticəsində xəstənin sağlamlığına ciddi zərər dəyibsə, Qərb təcrübəsini tətbiq etmək lazımdır. Qərb praktikasına görə, xalqa xidmət edən bütün sahə işçiləri öz peşə fəaliyyətlərini sığortalayırlar. Daha sonra vətəndaşa hər hansı zərər dəysə, sığorta şirkətləri həmin zərəri qarşılayırlar. Bizdə də bu cür tətbiqlər var, ancaq həkimlər hələ ki, bu üsuldan istifadə etmirlər".

Həmsöhbətimiz onu da vurğuladı ki, Amerika kimi inkişaf etmiş ölkələrdə də səhv diaqnoz, yanlış dərman qəbulu nəticəsində ölən yüzlərlə insan var. Bu ciddi məsələdir. Ölkəmizdə belə halların baş verməməsi üçün tədbirlər görülür. "Xəstəyə dəyən zərər həkimin səhvi ucbatından baş veribsə və təsdiqlənibsə, o, hüquq- mühafizə orqanları tərəfindən cəzalandırılır".

### *"Qərb təcrübəsini tətbiq etmək lazımdır"*

Ekspertin sözlərinə görə, həkim ehtiyatsızlığı ucbatından xəstəyə dəymiş zərərin ödənilməsi icbari tibbi sığorta vasitəsilə təmin olunur. Bu, islahatların çox mühüm tərkib hissəsidir. Həmçinin, sosial müdafiənin də mühüm hissəsidir. İcbari tibbi sığortasız, ümumiyyətlə, səhiyyənin beynəlxalq standartlara uyğunluğunu təsəvvür etmək mümkün deyil: "Səhiyyədə beynəlxalq, Qərb standartı deyiriksə, ilk növbədə, icbari tibbi sığorta və onun səviyyəsindən söhbət gedir. Baxmayaraq ki, 20 il öncə bu qanun Prezident tərəfindən imzalanıb, amma indiyədək həyata keçirilməyib. Azərbaycanda icbari tibbi sığortanın müəyyən edilməsi problemdir. Əvvəla müəyyən kateqoriyadan olanlar, gəlirləri minimal olan və olmayan, tələbələr, təkuşaqlı analar, aztəminatlı ailələr və s. bunlar birbaşa dövlət büdcəsindən maliyyələşməlidirlər. İşləməyən və əmək pensiyasında olan işsizlər, əslində, əmək pensiyasından maliyyələşməlidir. Bizdə əmək pensiyası praktikası olmadığına görə işsizlər də dövlətin çiyninə düşür.

Qalır dövlət və özəl sektorda işləyənlər, məmurlar və yüksək gəlirli biznesmenlər. Bunların da maliyyələşməsi işləyənlər öz maaşından, yüksək gəlirli biznesmen və məmurlar da xüsusi sığortalarına görə olur. Əhalinin bütün kateqoriyaları sığorta paketinə sahib olur və sığorta vəsiqəsi əldə edir. Bununla da proses başlayır".

***Günel CƏLİLOVA***

# Abituriyentlər imtahana cadu-piti, dualar, seyid şəkilləri ilə gəlir, heç olmasa şparqalka...

**Deyir ki, yüz dəfə imama yalvarınca bir dəfə Allaha yalvar. Əslində, doğru deyimdir. Bizdə təəssüf ki, yalnız yaşlı nəsil deyil, hətta yeniyetmə və gənclər də bir qədər xurafata meyl göstərirlər. Cadu, "dil-ağız bağlama" kimi cəhalət örnəyi olan hallara gənclərimizin də meyl etməsi diqqəti çəkir.**



## *İsmayıl Əhməd: "Abituriyentlərin imtahanlara dualar, seyid şəkilləri ilə getməsi həm onların özünə güvəninin olmamasından, həm də cahilliklərindən irəli gəlir"*

Biz bunu daha çox ali məktəblərə keçirilən qəbul imtahanlarında müşahidə edirik. Əvvəllər imtahana gedənlər özləri ilə şparqalka götürərdilərsə, indi şparqalkanı dua, seyid şəkilləri əvəzləyir. Saysız abituriyent var ki, onlar öz həyəcanlarını yox etmək, imtahanda yüksək nəticə qazanmaq üçün müxtəlif falçılara üz tutur, onların yazdıqları duaları özləri ilə imtahana götürür.

Bu hal hər il yaşansa da, keçən illərlə müqayisədə budəfəki imtahanlarda özünü daha kütləvi şəkildə göstərib. Bakıda və bölgələrdə II və III ixtisas qrupları üzrə ali məktəblərə növbəti qəbul imtahanının gedişində abituriyentlərin üzərində aparılan yoxlama zamanı dualar, seyidlərin şəkilləri çıxıb. Hətta imtahan olan binada çəkiliş aparılan zaman da diqqət abituriyentlərin üzərindən çıxan bəzi əşyalara yönəlib. Abituriyentlərin öz biliklərinə güvənmək əvəzinə, xurafata meyl etmələri təəccüb və təəssüf doğurur.

Son zamanlar cəmiyyətimizdə yayılan bu kimi halların mövcudluğundan təəssüf hissi keçirən dinşünaslar hesab edirlər ki, gənclərin kütləvi şəkildə xurafata meyl etməsinin səbəbi dini maarifçiliyin zəif olmasıdır.

### *"... imtahan və digər məsələlərdə dinə üz tutması dənizdə batan insanın saman çöpündən yapışması kimidir"*

**Dinşünas İsmayıl Əhməd mövzunu şərh edərkən "Bakı-Xəbər"ə bildirdi ki, şübhəsiz, bu kimi hallar abituriyentlərin özünə güvənsizliyindən irəli gəlir.** "Abituriyentlərin imtahanlara dualar, seyid şəkilləri ilə getməsi həm onların özünə güvəninin olmamasından, həm də cahilliklərindən irəli gəlir. Dini baxımdan cahil savadsız insana deyil, həqiqəti dərk etməyən insana deyilir. Yəni bu abituriyentlərin aləmində hətta bilmədikləri, bacarmadıqları bir işin həllində özündən yüksək bir şəxsə üz tutmaq, ondan kömək gözləmək anlamına gəlir. Təbii ki, bu da absurd və cəfəngiyyatdır. Əgər insan hansısa fənni bilmirsə, o özü ilə seyidlərin, peyğəmbərlərin şəkillərini, hətta 10 Quran götürüb imtahana getsə belə, bunun ona heç bir müsbət təsiri olmayacaq. Biliyi olmayan belə abituriyentlər isə imtahanda heç zaman uğur qazana bilməz. Onların imtahana dua, seyid şəkilləri aparmasının səbəbinə gəlincə, bunun bir neçə səbəbi var. Birincisi odur ki, həmin abituriyentlərin ailələrində ya dini maarifləndirmə zəifdir, ya da din onların ailəsində xurafat şəklində təbliğ olunur. Digər tərəfdən, həmin abituriyentlərin özlərinin həqiqi dini təlimə meylli olmaması, onların imtahan və digər məsələlərdə dinə üz tutması dənizdə batan insanın saman çöpündən yapışması kimidir" - deyə İ.Əhməd vurğuladı.

***İradə SARIYEVA***

# Azərbaycanda ev muzeyləri - dövlət vəsaitinin mənasız xərcləndiyi daha bir sahə... Dünya onları çoxdan özəlləşdirib...

***Gülbəniz Babaxanlı:** "Bizim muzeyə il ərzində dövlət büdcəsindən təqribən 30-40 min manat civarında vəsait ayrılır"*

***Xatirə Mirzəyeva:** "Xaricdəki kimi bizim xatirə-memorial, mənzil muzeylərinə xüsusi fondlar, iş adamları tərəfindən maliyyə yardımları göstərilərsə, onlar da özəl fəaliyyət göstərməkdə maraqlı olarlar"*

***Aydın Xan Əbilov:** "...dövlət büdcəsinə yük olmasınlar"*

**Dünyanın hər yerində ən çox ziyarət edilən məkanlardan biri muzeylərdir. Onların sırasında görkəmli şəxsiyyətlərin, ədəbiyyat-incəsənət, dövlət xadimlərinin, böyük musiqçilərin, bir sözlə, bəşəriyyətin rifahına xidmət edən insanların memorial-xatirə, ev muzeyləri də ziyarətçiləri cəlb edir. Həm yerli sakinlər, həm də xarici turistlər görkəmli şəxsiyyətlərin keçdiyi həyat, yaradıcılıq, mübarizə yolunu öyrənmək üçün bu muzeyləri də ziyarət etməyi unutmur.**

Həmin şəxsiyyətlərin xatirələrinin əbədiləşdirildiyi muzeylərə xarici ölkələrdə yanaşma bizdəkindən fərqlidir. Görkəmli şairlərin, yazıçıların, bəstəkarların, rəssamların, inqilabçıların, ictimai və siyasi xadimlərin mənzil, xatirə və memorial muzeyləri özəl qurumlar kimi fəaliyyət göstərir. Bu muzeylər ziyarətçilərdən əldə edilən vəsitlə, muzeylərin öz daxili imkanları hesabına saxlanır. Keçmiş İttifaq ölkələrinin çoxunda mənzil və xatirə muzeylərinin özəlləşdirildiyi məlumdur. Sovet dövründə əsası qoyulan xatirə-memorial, mənzil muzeyləri o dövrdən başlayaraq dövlət büdcəsindən maliyyələşib. Qeyd etdiyimiz kimi, bir sıra keçmiş ittifaq respublikalarında mənzil muzeylərinin maliyyələşdirməsi dövlət büdcəsindən çıxarılıb. Lakin Azərbaycanda hələ də xatirə-memorial, mənzil muzeyləri dövlətdən ayrılan vəsait hesabına fəaliyyət göstərir. Bu muzeylərdə eksponatların alınmasından, bərpasından tutmuş əməkdaşların əməkhaqqına qədər tələb olunan bütün vəsaitlər dövlət büdcəsindən ayrılır.

Yeri gəlmişkən bildirək ki, Azərbaycanda ilk muzey Bakıda 1920-ci ildə yaradılıb. İlk memorial muzey isə 1938-ci ildə Şəkidə fəaliyyətə başlayıb. Bu, böyük Azərbaycan dramaturqu və filosofu Mirzə Fətəli Axundovun ev-muzeyidir.

Azərbaycanda bu muzeylərin yaranmasına qədər mövcud olan qiymətli eksponatlar indi dünyanın bir çox muzey və sərgi salonlarını bəzəyir. Hazırda Azərbaycan ərazisində 201 muzey fəaliyyət göstərir ki, bunlardan 14-ü incəsənət, 7-si ədəbiyyat, 12-si tarix, 68-i tarix-diyarşünaslıq, 5-i döyüş şöhrəti, 43-ü ev, 52-si Heydər Əliyev muzeyidir.

Məlum olduğu kimi, respublikamızın muzey şəbəkəsində görkəmli şəxsiyyətlərin xatirə muzeyləri mühüm yer tutur. Xatirə muzeylərinin yaradılmasına xüsusi dövlət qayğısının 1970-1980-ci illərə, daha sonra isə Azərbaycanın öz müstəqilliyini bərpa etməsindən sonrakı dövrə təsadüf etdiyi bildirilir. Bu muzeylərin açılışı təntənəli mərasimlərlə müşayiət olunub, dövlət və hökumət rəsmiləri həmin mərasimlərdə iştirak edib.

Qeyd edək ki, Bakıda Üzeyir Hacıbəylinin, Səməd Vurğunun, Cəfər Cabbarlının, Cəlil Məmmədquluzadənin, Bülbülün, Hüseyn Cavidin, L. və M. Rostropoviçlərin, Nəriman Nərimanovun, Abdulla Şaiqin, Cəlil Məmmədquluzadənin, Hacı Zeynalabdin Tağıyevin, Əzim Əzimzadənin, Qara Qarayevin, Niyazinin, Məmməd Səid Ordubadinin, Vaqif Mustafazadənin, Naxçıvan Muxtar Respublikasında Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Məmməd Səid Ordubadinin, Yusif Məmmədəliyevin, Şamaxıda Mirzə Ələkbər Sabirin, Lənkəranda Həzi Aslanovun, Şəkidə Mirzə Fətəli Axundovun, Rəşid bəy Əfəndiyevin, Sabit Rəhmanın, Xızıda Cəfər Cabbarlının, Gəncədə Mir Cəlal Paşayevin, Göyçayda Rəsul Rzanın, Ağstafada Hüseyn Arifin, Ağdaşda Maqsud Şeyxzadənin xatirə muzeyləri fəaliyyət göstərir. Bu muzeylərdə həmin şəxsiyyətlərin həyatı və fəaliyyəti ilə bağlı toplanan materiallar yer alıb. Muzeylərin yaradılmasında məqsəd həmin böyük şəxsiyyətlərin irsinin yaşadılması, təbliğ edilməsi və mühafizəsidir. Bu muzeylər onların sağlığında yaşadığı, yaradıcılıqla məşğul olduqları şəxsi mənzillərində yaradılıb. Bundan başqa, çox təəssüf ki, Ermənistanın respublikamıza hərbi təcavüzü nəticəsində Şuşada Üzeyir Hacıbəylinin, Bülbülün və Mir Möhsün Nəvvabın, Ağdamın Gülablı kəndində Qurban Pirimovun, Laçının Güləbird kəndində Sarı Aşığın xatirə muzeyləri erməni vandalizminin qurbanı olub.

Onu da qeyd edək ki, respublikamızın xatirə muzeyləri sırasında şair və yazıçılara həsr olunmuş ədəbi-xatirə muzeyləri daha çoxdur. Ədəbi-xatirə muzeyləri kompleksinə yazıçının yaşamış olduğu ev, mənzil, malikanə, onun şəxsi əşyaları, əlyazmaları, müxtəlif sənədləri, sağlığında nəşr olunmuş kitabları, yaxud yaradıcılığına həsr olunmuş tədqiqat işləri və s. daxildir.

Bu gün Azərbaycanda fəaliyyət göstərən xatirə-memorial, ev muzeylərinin bir çoxu Mədəniyyət Nazirliyinin, Bakı Şəhər Mədəniyyət İdarəsinin, bir neçəsi Azərbaycan Milli Elmlər Akademiyasının, bir hissəsi isə rayon mədəniyyət idarələrinin nəzdində fəaliyyət göstərir.

**Azərbaycanda mənzil muzeyləri özəl fəaliyyət göstərərsə...**

Əlbəttə, ədəbiyyatımızda, mədəniyyətimizdə, dövlətçilik tariximizdə, hərb sənətimizdə çox parlaq izlər qoyan görkəmli şəxsiyyətlərimizin hər birinin xatirəsi bizim üçün əzizdir. Ancaq 40-dan xatirə-memorial, ev muzeylərinin dövlət büdcəsindən ayrılan maliyə vəsaiti hesabına fəaliyyət göstərməsi doğru deyil. Bu mənada ki, o muzeylərin özləri müstəqil olaraq maliyyə qaynaqları tapmalı və dövlət büdcəsindən asılı olmadan fəaliyyətlərini davam etdirməlidirlər. İl ərzində dövlət büdcəsindən xatirə-memorial ev muzeylərinin saxlanması üçün külli miqdarda vəsait ayrılır. Bu vəsaitlə həm muzeyləri saxlayırlar, həm də burada çalışan muzey işçilərinin əməkhaqqını ödəyirlər. Bu muzeylərdə bələdçilərlə, şöbə müdirləri ilə, ekspozisiya nəzarətçiləri ilə yanaşı həm də elmi işçilər çalışır, onlar burada elmi-tədqiqat işləri aparırlar. Bu baxımdan, xatirə-memorial, mənzil muzeylərinin saxlanmasına daha çox vəsait xərclənməsi tələb olunur.

Bəzi muzeyşünasların bildirdiyinə görə, bu muzeylər ya özəlləşdirilməli, ya da ölkəmizdə fəaliyyət göstərən digər muzeylərdə xüsusi şöbələr kimi fəaliyyətini davam etdirməlidir. Hazırda belə muzeylərin saxlanmasının dövlət büdcəsi üçün böyük yük olduğunu qeyd edən muzeyşünasların bildirdiyinə görə, bu muzeylərin heç biri müstəqil olaraq vəsait qazana bilmir.



Bakıda fəaliyyət göstərən xatirə-memorial, mənzil muzeylərinə dövlət büdcəsindən ayrılan vəsitin həcmini araşdırmaq istədik. Mədəniyyət Nazirliyindən sorğumuza cavab ala bilmədiyimiz üçün muzeylərin özləri ilə əlaqə saxladıq.

Belə profilli muzeylərdən bildirdilər ki, muzeylərə ayrılan illik vəsaitin həcmini açıqlaya bilməzlər. Muzeylərin özəlləşdirilməsinə gəlincə, muzey əməkdaşları qeyd etdilər ki, muzeylərə giriş haqqı o qədər ucuzdur ki, bu vəsait hesabına ümumiyyətlə muzeyləri saxlamaq mümkün deyil.

**"Demək olar ki, bizim muzeyə xarici turistlər gəlmir"**

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) nəzdində fəaliyyət göstərən Hüseyn Cavidin ev muzeyinin direktoru, filologiya elmləri doktoru Gülbəniz Babaxanlı baki-xeber.com-un sorğusuna cavab olaraq bildirdi ki, Hüseyn Cavidin ev muzeyinin fəaliyyət göstərməsi üçün dövlət büdcəsindən tələb olunan vəsait ayrılır. O qeyd etdi ki, muzeyə giriş çox ucuzdur, qoyulan qiymət simvolik xarakter daşıyır. O, tələbələrin muzeyə giriş üçün 50 qəpik, qeyri-tələbələrin isə 1 manat ödədiyini dedi. "Bizim əsas məqsədimiz Hüseyn Cavid irsini təbliğ etməkdir. Odur ki, muzeyə daha çox məktəblilərin, tələbələrin cəlb edilməsinə çalışırıq. Bura ən çox məktəblilər gəlir və onların da muzeyə ziyarətini ödənişsiz olaraq özümüz təşkil edirik ki, təki onlar muzeyə gəlib Cavid irsi ilə tanış olsunlar. Məqsədimiz Cavid irsini gənc nəslə öyrətmək, onlar arasında təbliğ etməkdir.

Demək olar ki, bizim muzeyə xarici turistlər gəlmir. Qonaqlarımız əsasən Türkiyədən gələn tədqiqatçı alimlərdir, onlardan da giriş üçün pul alınmır. O insanlar Cavidi sevənlər, onun irsini tədqiq edənlərdir. Dövlət büdcəsindən ayrılan vəsaitə gəlincə, bu, muzeyin tələbatı ilə bağlıdır. Bizim muzeyə il ərzində dövlət büdcəsindən təqribən 30-40 min manat civarında vəsait ayrılır", - deyə G.Babaxanlı bildirdi.

**"Xatirə-memorial, mənzil muzeylərinin özəlləşdirilməsi bir qədər həssas məsələdir"**

Müstəqil muzeyşünas Xatirə Mirzəyeva bizimlə söhbətində bildirdi ki, Azərbaycanda özəl muzeylər, demək olar ki, yoxdur. O qeyd etdi ki, bir-iki muzeyi çıxmaq şərtilə, bizim xatirə-memorial, mənzil muzeylərinə xarici turistlər gəlmir. Onun sözlərinə görə, muzeylərə dövlət büdcəsindən vəsait ayrılmasa bizim xatirə-memorial, mənzil muzeylərimizin fəaliyyəti sual altına düşər. Muzeylərə giriş haqqının həddən artıq aşağı olduğunu deyən mütəxəssisin bildirdiyinə görə, Bakıda belə profilli muzeylərə giriş 50 qəpiklə 1 manat arasındadır. Məktəblilərə isə girişin ümumiyyətlə pulsuz olduğunu deyən mütəxəssis qeyd edir ki, dövlət büdcəsindən ayrılan vəsait muzeyləri xilas edir. O hesab edir ki, dünyada olduğu kimi, Azərbaycanda da xatirə-memorial, mənzil muzeylərin özəlləşdirilməsi yaxşı olardı, amma bizdə o muzeylərin yaşaması üçün əvvəlcə maliyyə qaynaqları müəyyən edilməlidir. İl ərzində xatirə-memorial, mənzil muzeylərinə ən çox məktəblilərin gəldiyini bildirən müsahibimiz bildirdi ki, çox nadir hallarda bura tələbələr və sıravi vətəndaşlar üz tutur, xarici turistlər isə ümumiyyətlə bir çox xatirə muzeylərinin qapısını tanımırlar. Muzeyşünasın sözlərinə görə, bir mənzil muzeyin saxlanması üçün kifayət qədər vəsait tələb olunur. Dövlət büdcəsindən belə muzeylərə ayrılan vəsaitin həcminə gəlincə, onun məlumatına görə, bu təxminən 20-40 min civarındadır. Muzeylərə il ərzində ayrılan vəsaitin həcminin ictimaiyyət üçün açıqlanmadığını deyən mütəxəssisin dediyinə görə, xatirə-memorial, mənzil muzeylərinin müstəqil olaraq özlərini saxlamaq imkanları yoxdur. "Xatirə-memorial, mənzil muzeylərinin özəlləşdirilməsi bir qədər həssas məsələdir. Bu muzeylər o zaman özəlləşdirilə bilər ki, onların özlərinin müstəqil olaraq maliyyə qazanmaq imkanları olar. Siz xaricdə fəaliyyət göstərən xatirə-memorial muzeylərin özəl olaraq fəaliyyət göstərdiyini deyirsiz. O muzeylərin ziyarətçi sayından və qiymətlərindən xəbəriniz varmı? O muzeyləri il ərzində 500- 800 min nəfər ziyarət edir. Özü də ora giriş bizdəki kimi 50 qəpik, 1 manat deyil, onların giriş qiyməti bahadır. Xaricdəki xatirə-memorial muzeylər ona görə özəl qurum kimi fəaliyyət göstərə bilir ki, onlar marketinq xidmətlərini tətbiq edirlər. Eyni zamanda da ziyarətçiləri muzeyə cəlb etmək üçün xüsusi işlər görürlər, onlayn reklamlar yerləşdirirlər və s. Həm də bu muzeylərin yaşadılmasına müxtəlif fondlar, imkanlı şəxslər tərfindən maliyyə yardımları edilir. Bizim muzeylər isə əsasən maarifçilik xidməti göstərir, öyrədir, gəncləri cəlb edir və bu baxımdan da giriş qiymətlərini həddsiz dərəcədə ucuz edirlər. Muzeylərimiz qiyməti qaldırsalar ziyarətçilər gəlməyəcək. Bizdə belə bir ənənə var, yeməyə, gəzməyə, əyləncəyə böyük vəsaitlər xərcləyirik, amma təəssüf ki, muzeyə pul xərcləmək istəmirik. Azərbaycanda xatirə-memorial muzeylərin özəlləşdirilməsi hələlik müsbət effekt verə bilməz. Bəlkə nə vaxtsa bizdə də xatirə-memorial, mənzil muzeyləri özəlləşdirilə bilər, ancaq bunun üçün hələ tezdir. Əgər müəyyən xeyriyyəçi fondlar, xeyriyyəçi insanlar bizim xatirə-memorial, mənzil muzeylərinə xüsusi qayğı göstərsələr, onların da özəlləşdirilməsi aktuallaşa bilər. Xaricdəki kimi bizim xatirə-memorial, mənzil muzeylərinə xüsusi fondlar, iş adamları tərəfindən maliyyə yardımları göstərilərsə onlar da özəl fəaliyyət göstərməkdə maraqlı olarlar"-deyə müsahibimiz bildirdi.

**"Xatirə-memorial muzeylərin özəlləşdirilməsi Azərbaycan üçün hələ tezdir"**

Yazıçı-kulturoloq Aydın Xan Əbilovun fikrincə də, xatirə-memorial, mənzil muzeylərinin özəlləşdirilməsi müsbət hal olardı, ancaq bunun üçün o muzeylərin özlərinin saxlamaq imkanları olmalıdır. "Azərbaycanda fəaliyyət göstərən mənzil muzeylərinin özəlləşdirilməsi çox yaxşı olardı. Ancaq görək, bu muzeylərin hansı özəlləşdirmədən sonra öz fəaliyyətini davam etdirə bilər? Dövlət büdcəsindən vəsait ayrılmasa o muzeylərin, demək olar ki, çoxu fəaliyyət göstərməz. Bu da onunla bağlıdır ki, xatirə-memorial, mənzil muzeylərimizin ziyarətçi sayı çox aşağıdır. Bu gün heç böyük muzeylərə kütləvi ziyarətçi axını yoxdur. Bu baxımdan, xatirə-memorial muzeylərin özəlləşdirilməsi Azərbaycan üçün hələ tezdir. Xaricdə fəaliyyət göstərən belə profilli muzeylərin arasında il ərzində yarım milyarddan artıq vəsait əldə edən muzeylər var. Əlbəttə, belə muzeylər dövlət büdcəsində asılı deyil, əksinə, öz fəaliyyəti ilə dövlət büdcəsinə də gəlir gətirir. Almaniyada fəaliyyət göstərən bir muzeyi il ərzində yüzlərlə ziyarətçi ziyarət edir, bu da külli miqdarda vəsait deməkdir.

Bəli, bu gün Azərbaycanda mənzil, xatirə-memorial muzeylərin yaşadılması üçün dövlət tərəfindən böyük həcmdə vəsait ayrılır. Demək olar ki, bu muzeylər dövlət büdcəsinə heç bir xeyir vermir. Fikrimcə, bu muzeylər ya birləşdirilməli, ya böyük muzeylərin daxilində bir şöbə kimi fəaliyyət göstərməli, ya da ki, xüsusi fondlar tərəfindən maliyyələşdirilməlidirlər ki, dövlət büdcəsinə yük olmasınlar. Çünki onların müstəqil olaraq özlərini yaşatması mümkün deyil. Mənzil muzeyləri ziyarətçiləri cəlb etmək üçün xüsusi layihələr düşünməlidir. Məsələn, muzeylərdə əlavə olaraq kitab klubları da fəaliyyət göstərə bilər, bu, muzeyə gəlir gətirə bilər".

A.X.Əbilov hesab edir ki, hələlik xatirə-memorial, mənzil muzeylərinin özəlləşdirilməsi müsbət nəticə verməz. O, hətta bunun çox qorxulu tendensiya olduğunu da vurğuladı. "Bu profilli muzeylərin özəlləşdirilməyə cəlb edilməsi indiki halda fayda verməz. Yadınıza gəlirsə, keçən əsrin 90-cı illərinin ortalarından sonra bir sıra kinoteatrların, kitabxanaların, kitab mağazalarının və s. özəlləşdirilməsi baş verdi. Gördük ki, onların çox cüzi hissəsi öz profilinə uyğun fəaliyyət göstərdi, qalanları isə restoranlara, kafelərə, digər obyektlərə çevirildi. Qorxuram ki, mənzil muzeylərinin özəlləşdirilməsinin də nəticəsi bu cür olar. Yaxşı hal o ola bilərdi ki, Dövlət Neft Fondu, eləcə də digər yerli qurum və fondlar özəlləşməyə meyl göstərən muzeylərin fəaliyyətinə maliyyə dəstəyi versin"-deyə A.X.Əbilov vurğuladı.

***İradə SARIYEVA***

№ 119 (4017) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

9 İYUL 2019-cu il

www.baki-xeber.com

## "Azercell"dən yeni cihaz kampaniyası

**Yüksək sürətli interneti hər kəs üçün əlçatan etməyi hədəfləyən "Azercell" abunəçilərini yeni kampaniya ilə sevindirir.**

Belə ki, 3G USB, 3G MiFi və ya 4G MiFi cihazlarından birini əldə edən abunəçilər hədiyyə qismində verilən sərfəli internet paketlərindən yararlana biləcək. Qeyd edək ki, abunəçi tərəfindən ödənilən məbləğin 100%-i cihaz üzərində təqdim olunan nömrənin balansına geri qaytarılır. Cihazlar nağd ödəniş əsasında satıldığından, növbəti aylarda məcburi abunə haqqı tələb olunmur və cərimə tətbiq edilmir. Beləliklə, kampaniya çərçivəsində 149 AZN ödəyərək, 4G MiFi alan abunəçilər 5 ay boyunca hər ay hədiyyə qismində təqdim olunan Limitsiz internet paketindən istifadə edəcək. Dəyəri 99 AZN olan 3G MiFi cihazını alan istifadəçilər 5 ay ərzində hər ay ödənişsiz təqdim edilən 30 GB-lıq internet paketindən yararlana biləcək. 3G USB cihazını 24 AZN ödəyərək, əldə edən abunəçilərə isə 3 ay boyunca hər ay 10 GB həcmində internet paketi hədiyyə olunacaq. Kampaniyaya qoşulmaq üçün abunəçilər "Azercell" Müştəri Xidmətləri, "Azercell" Eksklüziv Mağazaları və ya Diler Ofislərinə müraciət edərək, mövcud təkliflərdən birini seçə bilər.

Ətraflı məlumat üçün https://www.azercell.com/az/personal/devices/broadband_device/ səhifəsinə daxil olun.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Bakı şəhəri, Nəsimi rayonu, Əlibəy Hüseynzadə küçəsi, ev 84, mənzil 18-də hüquqi qeydiyyatı olan "Alyans Qrup" MMC-nin (VÖEN 1401718521) nizamnaməsi itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Aşağı Küngüt kənd sakini Əsədov Rasim Qurban oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 222 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Tağıyev Baxşəli Museyib oğluna məxsus, YN281№-li torpaq mülkiyyətinə verilən şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Məmmədov İsa Heydər oğluna məxsus, Sabunçu rayonu, Ləiş bağ sahəsində yerləşən №5179 bağın plan və ölçüsü itdiyi üçün etibarsız sayılır.

Məmmədova (Rəhimli) Rəfiqə Akif qızına məxsus, Bakı şəhəri, Yasamal rayonu, Akim Abbasov küçəsi, ev №18 B, mənzil №19 ünvanına verilmiş çıxarış (kupça), texniki pasport itdiyi üçün etibarsız sayılır.

Əhmədov Teymur Telman oğluna məxsus, Mazda 6, 90-RC-555 dövlət nişanlı avtomaşının, AC 468902 dövlət nömrə nişanlı avtomaşının texniki pasportu və DİN BDYPİ tərəfindən verilmiş sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Həmidov Ənvər Qüdrət oğluna Müdafiə Nazirliyi tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Yusubova Xumar Ramil qızına Bakı Dövlət Universiteti (Filologiya fakültəsinin Alman dili və ədəbiyyat ixtisası) tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Məmmədov Kamil Telman oğluna Bakı Mühəndislik Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Süleymanov Mirsadiq Malik oğluna "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən verilmiş iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## "Nar"ın 4G texnologiyalı baza stansiyalarının sayı 2000-i ötdü




**Ölkənin ən geniş 4G texnologiyasını dəstəkləyən şəbəkəyə malik "Nar"ın 4G texnologiyalı baza stansiyalarının sayı 2000-i ötüb. Mobil operatorun 2000-ci LTE baza stansiyası Samux rayonunda quraşdırılıb.**

Bununla da rayon sakinləri "Nar"ın 3G texnologiyalı şəbəkəsi ilə yanaşı, geniş 4G texnologiyasını dəstəkləyən şəbəkəsindən də yararlana biləcəklər. Qeyd edək ki, "Nar"ın 4G texnologiya əsaslı şəbəkəsi hazırda ölkə ərazisinin 40%-ni, ölkə əhalisinin isə 70%-dən çoxunu əhatə edir. Ölkə boyu baza stansiyalarının sayını artıran mobil operator 2019-cu il ərzində, ümumilikdə, 380-dən çox yeni LTE texnologiyasına əsaslanan baza stansiyası, 50-dən çox isə 3G texnologiyasına əsaslanan baza stansiyası quraşdırıb. Hazırda 3G texnologiyalı baza stansiyalarının sayı 2600-ü ötüb. Mobil operatorun 4G şəbəkəsi ilə təmin edilən bölgələrinin sayı isə 50-dən çoxdur.

"Artıq həyatımızı internetə təhlükəsiz və sürətli bağlantı olmadan təsəvvür etmək çətindir. Ölkənin ən gənc mobil operatoru olaraq, abunəçilər tərəfindən sərfəli təkliflərimiz, yüksək keyfiyyətli və sürətli LTE şəbəkəmizə görə seçilmək bizi sevindirir. Yüksək keyfiyyətli LTE şəbəkəmizin sürətlə genişlənməsi sayəsində bu il 4G istifadəçilərimizin sayı 700 minə çatdı. Bundan başqa, "Nar"ın tarixində əlamətdar bir hadisəni - Samux rayonunda 2000-ci 4G baza stansiyasının quraşdırıldığını elan etmək bizə qürur verir. Uzunmüddətli inkişaf strategiyamızın bir hissəsi kimi LTE şəbəkəsini paytaxtla yanaşı, regionlarda da genişləndirməyə və abunəçilərimizi rəqəmsal dünyanın üstünlükləri ilə təmin etməyə davam edəcəyik", - deyə "Nar"ın baş icraçı direktoru Qunnar Panke bildirib.

"Nar" 4G şəbəkəsini Bakı və Abşeron yarımadası ərazisi ilə yanaşı, regionlarda, şəhər və rayon mərkəzlərində də artırır. "Nar" Azərbaycanın ən ucqar kəndlərini belə mobil rabitə xidmətlərilə təmin etməkdədir. Qeyd edək ki, mobil operatorun 4G istifadəçilərinin 72%-i paytaxt Bakının, 28%-i isə regionların payına düşür.

Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,5%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7800-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.





**Qoç** - Çalışdığınız kollektivdə qəfil xəbərlər istisna deyil. Mövcud vəziyyəti nəzərə alaraq, imkanlarınızı aşmadan fəaliyyət göstərin. Yaşananlardan faydalanmaq üçün maksimum dərəcədə aktiv olun.



**Buğa** - Ambisioz, hikkəli, aqressiv olmayın. Əvvəlki incikliklərin heyfini almağa çalışmayın. Münaqişələrə meylli, kinli insanlardan uzaq durun. Daxili azadlığınızı və sərbəstliyinizi qoruyun.



**Əkizlər** - Ani qərarlar verməyin. Düşünüb daşının, sonra fikrinizi açıqlayın. Yaşanan proseslərlə bağlı mövqeyinizdə dəyişikliklər ola bilər. Yaxın ətrafınızdakı insanlara dəyər verin, onların qəlbini qırmayın.



**Xərçəng** - Rutin işlər darıxdırıcı təsir bağışlasa da, onları yarımçıq qoymayın. Aksiyalara və toplantılara qatılmayın. Müstəqil fəaliyyətə üstünlük verin. Saxta etiraflara və yalnız ilk baxışdan cazibədar təsir bağışlayan təkliflərə aldanmayın.



**Şir** - Təşəxxüslü, ifrat qürurlu olmayın. Hisslərinizə hakim ola bilməsəniz, fəsadları ağır addımlar ata bilərsiniz. Ailə üzvlərinin tələblərini nəzərə alın. Onların istəkləri ön planda olmalıdır. Axşam saatlarında əyləncəyə yollana bilərsiniz.



**Qız** - Günün ilk yarısı yaradıcılıq üçün əlverişlidir. Xatirələrin təsiri və hisslərin pressinqi altında olsanız, ən adi, rutin işlər yarımçıq qala bilər. Rasional məntiqinizi unudub ani istəklərlə davranmayın.



**Tərəzi** - Maliyyə məsələlərində diqqətli olun. Münasibətlərdə gərginlik yarada biləcək addımlar atmayın, sayıq və diqqətli olun. Bədxərclik etməyin, alış-verişdə məntiqli davranın. Qida rasionunuza fikir verin.



**Əqrəb** - Emosiyalarınızı nəzarətdə saxlayın. Hissləriniz sizi yanlış addımlar atmağa vadar edə bilər. Təmkinli olun, bütün diqqəti işə yönəldin. Maddi və ya mənəvi baxımdan təzminatlar əldə etməyə can atmayın.



**Oxatan** - Sınaq zamanıdır. Günün ilk yarısından etibarən maneələr və sədlərin sayı artacaq. Təşəbbüslər zamanı deyil. Cari işləri başa vurun, yarımçıq heç nə saxlamayın. Kiçik uğursuzluqlar sizi ruhdan salmasın.



**Oğlaq** - Günün ilk yarısı qəfil hadisələr və təəssüratlar, görüşlər və xəbərlər vəd edir. Önəmli saydığınız məsələ ilə bağlı yeni məlumatlar ala bilərsiniz. Gözlədiyiniz hadisə baş verəcək.



**Dolça** - Rutin, adi işlər üçün neytral zamandır. Qarşınıza böyük məqsədlər qoyubsunuzsa, sizi çətinliklər gözləyir. Mübahisəni, diskussiyanı, kütləvi tədbirdə iştirakı təxirə salın. Mövqelərinizi qorumağa çalışın.



**Balıqlar** - Dəyişikliklərə başlamaq zamanıdır. Perspektivlə bağlı məlumatlar alacaqsınız. Yaxın ətrafınızdakı insanlar ideyalarınızı dəstəkləyəcəklər. Kiçik problemlərin həllini bir müddətə təxirə salmaq olar.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Məhəbbət haqqında ən qədim mahnının mətni tapıldı

**Çex arxeoloqları Qədim Çarlıq dövründə (bizim eradan əvvəl XXIII-XXI əsrlərin ortaları) yaşamış İnti adlı baş kahinin qəbir otağından dünyada məhəbbət haqqında ən qədim mahnının mətnini tapıblar.**

"AZƏRTAC" bildirir ki, bu barədə jurnalistlərə praqalı misirşünas alim Brjetislav Vaxala məlumat verib. "Bu nadir tapıntıdır. Əvvəllər belə hesab edilirdi ki, qədim misirlilər yalnız dini və elmi məzmunlu mətnlər yazıblar. Ən maraqlısı isə odur ki, mahnının mətni insan hisslərinin büruzə verilməsinə çox sərt münasibət bəsləyən din xadiminin - kahinin sarkofaqında olub". Brjetislav Vaxalanın çex dilinə çevirdiyi mahnıda Yasa adlı gəncin gözəl qıza məhəbbəti tərənnüm edilir. Alim dəqiqləşdirib ki, mahnı 4300 ildən əvvəlki dövrə aiddir. Qədim Misir mətninin oxunması bir ildən çox vaxt aparıb. O, çex dilindən başqa, ingilis, fransız və alman dillərinə də tərcümə olunub.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

e-mail: azer22@mail.ru

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.